www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 mart 2018-ci il Cümə № 67 (6956) Qiymәti 60 qәpik

**Xəbər**

**Bakıda ticarət və əyləncə mərkəzləri necə qorunur-araşdırma**

yazısı səh.11-də

**Gündəm**

**Bakı-Tehran münasibətləri yeni mərhələdə - Ruhaninin Azərbaycan səfərində tarixi nəticələr**



İran liderinin ölkəmizə ziyarəti bəzi "i"lərin üzərinə nöqtə qoydu; Tehran ərazi bütövlüyümüzə sadiq olduğunu bəyanladı

yazısı səh.8-də

**Prezidentliyə namizədlərlə bağlı ilginc faktlar**

yazısı səh.4-də

**"Azərbaycana keyfiyyətsiz silahlar satılıb" iddiasına rəsmi mövqe bildirildi**

yazısı səh.5-də

**Hamını düşündürən sual: 11 apreldən sonra nə olacaq?**

yazısı səh.6-da

**Alpinistlərin itkin düşməsinin 100 günü...**

yazısı səh.7-də

**Ohanesyan Bakını görə bilmədi - Ermənistan vətəndaşı olmayanlarla necə davranmalı...**

yazısı səh.9-da

**99 yaşlı xüsusi xidmət orqanlarına onlar rəhbərlik edib - adlar**

yazısı səh.7-də

**"Mehmanxanada bomba partlayacaq" deyən şəxs psixi xəstə çıxdı**

yazısı səh.11-də

**Bayram qurtardı, bazarlarda qiymətlər enmədi**

yazısı səh.14-də

**İlqar Məmmədov addım-addım azadlığa doğru...**

yazısı səh.3-də

# ELMAN RÜSTƏMOVUN BAŞI DƏRDDƏ - 47, 5 MİLYON DOLLARLIQ İDDİA

Bank əmanətçiləri baş bankirə və digər maliyyə strukturu rəhbərlərinə qarşı 47, 5 milyon dollarlıq iddia qaldırdılar; əgər məsələnin araşdırılması zamanı cinayət əməlləri ortaya çıxsa, ilk növbədə Milli Bank sədrinin və baş direktorun həbsi qaçılmaz olacaq; seçkidən sonra maliyyə sahəsini kurasiya edənlərin işdən uzaqlaşdırılacağı gözlənilir




yazısı səh.12-də

## Eldar Mahmudov son generalları da qurban verdi - 44 illik həbs və...

Bu gün "MTN işi" üzrə məhkəmədə sabiq nazirin "kassiri" və "qara qutusu" hesab olunan şəxslərə hökm oxunacaq; ev dustağı olan general-mayor Natəvan Mürvətovanın taleyi necə olacaq?

yazısı səh.10-da



**Hadı Rəcəbli qalmaqallı çağırışını təkzib etdi-təfərrüat**

yazısı səh.3-də



Allahşükür Paşazadə

**Şeyxi xaricdən vuran əllər kimdir?**

yazısı səh.4-də



*Fəzail Ağamalı:*

**"Rusiya özünə hörmət edən dövlətdirsə, Abbas Abbasovu Bakıya təhvil verməlidir"**

yazısı səh.5-də



# Bu gün Milli Məclisin xüsusi iclası keçiriləcək

**Martın 30-da Milli Məclisin 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı soyqırımının 100 illiyi ilə bağlı xüsusi iclası keçiriləcək. İclasda soyqırımla bağlı müraciət qəbul olunacaq.**

Xatırladaq ki, bu il yanvarın 18-də prezident İlham Əliyev 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında sərəncam imzalayıb. Sərəncamla Milli Məclisə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilib.

# Nazirlər Kabinetindən kredit faizləri açıqlaması



**Nazirlər Kabineti xarici valyutada verilmiş kreditlər üzrə kredit müddətinin uzadılması, faiz dərəcələrinin aşağı salınması ilə bağlı vətəndaşları narahat edən məsələyə münasibətini açıqlayıb.**

"Trend" xəbər verir ki, "Banklar haqqında" Qanuna əsasən, hər bir bank müştərilərlə bağladığı müqavilədə xidmət şərtlərini, o cümlədən faiz dərəcələrini, komissiya haqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə bank tərəfindən verilmiş kreditlərin ödənişi şərtlərini və qaydalarını müəyyən etməkdə sərbəstdir.

Bundan əlavə, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən 2015-ci il 14 may tarixində Mülki Məcəllənin 439.1-ci, 439.2-ci və 439.7-ci maddələrinin Azərbaycan Respublikasının Konstitutusiyasına uyğunluğunun yoxlanılması və həmin maddələrin bəzi müddəalarının şərh edilməsinə dair qərar qəbul edilib. Həmin qərara görə, əhalinin maraqlarını nəzərə alaraq, xarici valyutada verilmiş kreditlər üzrə kredit müddətinin uzadılması, faiz dərəcələrinin aşağı salınması və digər güzəştli şərtlərin tətbiqi üzrə tədbirlər bankların maliyyə imkanlarından asılı olaraq, həyata keçirilə bilər.

Beləliklə, kredit təşkilatları ilə müştərilər arasında münasibətlər qarşılıqlı qaydada razılaşdırılmış müqavilə ilə tənzimlənir.

# Ötən il Azərbaycanda 877 uşaq övladlığa götürülüb

**2017-ci ildə Azərbaycanda 877 uşaq övladlığa götürülüb ki, bu da 2016-cı illə müqayisədə 13,5 faiz çoxdur.**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən "Report"a verilən məlumata görə, əvvəlki ilə nisbətən övladlığa götürülən oğlanların sayı 15,9 faiz artaraq 466 nəfər, qızların sayı isə 10,8 faiz artaraq 411 nəfər olub.

Komitə Ədliyyə Nazirliyinin məlumatlarına əsasən bildirir ki, 2017-ci ildə əvvəlki illə müqayisədə övladlığa götürülən 3 yaşa qədər olan uşaqlarda 19,7 faiz, 3-5 yaşlı uşaqlarda 7,5 faiz, 6-10 yaşlı uşaqlarda 9,9 faiz, 11-17 yaşlı uşaqlarda isə 7,3 faiz artım müşahidə olunub və bu yaş qruplarında müvafiq olaraq 420, 172, 167 və 118 uşaq övladlığa götürülüb.

Ötən il ərzində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən 28 uşaq övladlığa götürülüb ki, onların da 12-si qızdır.

2017-ci ildə Azərbaycan Respublikasının məhkəmələri tərəfindən övladlığa götürülməsi barədə ləğv edilmiş qərarların sayı əvvəlki illə müqayisədə 7,9 faiz azalaraq 58 olub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01**

# General oğlu yenidən məhkəmə qarşısında

**Bakı Apelyasiya Məhkəməsində xuliqanlıqda təqsirləndirilən Rüstəm Orucov, Kənan Vəliyev və Pərviz Abbasovun cinayət işi üzrə məhkəmə qərarından verilən apelyasiya şikayəti üzrə məhkəmənin ilkin baxış iclası keçirilib. APA-nın xəbərinə görə, prosesdə R. Orucovun vəkilləri vəsatətlə çıxış edərək, əlavə şahidlərin məhkəmədə dindirilməsini istəyiblər.**

Məhkəmə vəsatətin müzakirəsini aprelin 5-dək təxirə salıb.



Novruzəli Orucov



Rüstəm Orucov

Qeyd edək ki, Binəqədi Rayon Məhkəməsinin qərarı ilə R. Orucov 1 il 6 ay avtomobil idarəetmə hüququndan məhrum edilməklə 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Onunla birgə saxlanılan Kənan Vəliyev və Pərviz Abbasovun hər biri 1 il 6 ay müddətinə azadlıqdan məhrum olunub. Onlar məhkəmə zalında həbs edilib.

Hüquq-mühafizə orqanlarının yaydığı məlumatda bildirilir ki, ötən il iyulun 3-də Bakı şəhər sakini Rüstəm Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı, 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatlığına və insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib.

Faktla bağlı Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb.

Xatırladaq ki, Rüstəm Orucov piyadanın ölümünə səbəb olan yol-nəqliyyat hadisəsi törədib, hadisə yerindən qaçdığına üçün 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olunub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib.

R. Orucov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə sabiq müavini - Həqiqi hərbi xidmətə çağırış baş idarəsinin keçmiş rəisi, general Novruzəli Orucovun oğludur. N. Orucov hadisədən sonra tutduğu vəzifədən azad edilib.



# Süpürgəçini vuran sürücüyə cinayət işi açıldı-rəsmi

**Bakı Şəhər Prokurorluğu və şəhər Baş Polis İdarəsi süpürgəçinin öldüyü hadisə ilə bağlı məlumat yayıb. Lent.az-a daxil olan birgə məlumatda bildirilir ki, martın 27-də saat 18 radələrində 1982-ci il təvəllüdlü Musayev Zaur Komissar oğlu etibarnamə olmadan idarə etdiyi 60-ZA-135 dövlət qeydiyyat nişanlı qoşqusu olan "KamAZ" markalı, 60-BX-765 dövlət qeydiyyat nişanlı yük avtomobili ilə paytaxtın Sabunçu rayonu ərazisində hərəkətdə olarkən qoşqunun arxa dəmir qapısı açılaraq yolun sağ tərəfində təmizlik işləri aparan 1965-ci il təvəllüdlü Bakı şəhər sakini Salahova Cəmilə İsmayıl qızına dəyib. Nəticədə qadın aldığı xəsarətlərdən hadisə yerində ölüb.**

Faktla bağlı rayon polis idarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. İş üzrə müvafiq ekspertizalar təyin edilib, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.



# "Hacı Cavad" məscidi hazırdır

**"Artıq "Hacı Cavad" məscidinin tikintisi başa çatıb". APA-nın məlumatına görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. M. Qurbanlı bu il "Hacı Cavad" məscidinin açılışının olacağını qeyd edib.**



# Bakıya küləkdən əvvəl toz gəldi

**Martın 29-da Bakıda havada tozun miqdarı sanitar normadan 25% yuxarı olub, bu barədə cümə axşamı Ekologiya Nazirliyinin ətraf mühitin monitorinqi departamenti məlumat yayıb. Bunun səbəbi Ərəbistan yarımadasından tozlu hava atmosfer axınlarının ölkə ərazisinə daxil olmasıdır. İdarənin mütəxəssisləri havada yüksək toz səviyyəsinin martın 30-na qədər davam edəcəyini proqnozlaşdırır. Bu arada, sinoptiklər martın 30-da Bakıda və Abşeronda qeyri-sabit hava şəraiti olacağını, yağış yağacağını, şimal-qərb küləyinin güclənəcəyini proqnozlaşdırır.**

Havanın temperaturu gecə +5 +7 dərəcə, gündüz +9 +11 dərəcə təşkil edəcək.

Martın 29-u ilə müqayisədə, 30-31-də Abşeronda hava kəskin dəyişəcək, havanın temperaturu 5-10 dərəcə aşağı düşəcək, şimal küləyi güclənəcək.




# "Veysəloğlu" qənnadı bazarında möhkəmlənir

## Şirkət rəsmisi: "İxracı artırmaq niyyətindəyik"

**Hazırda "Ulduz" şokolad fabriki məhsullarını 20-dən artıq ölkəyə ixrac edir.**

"Veysəloğlu" şirkətlər qrupunun Biznesə dəstək üzrə baş direktoru İlqar Nurinin verdiyi məlumata görə, bunların əksəriyyəti MDB ölkələridir.

"Yeni Müsavat" xəbər verir ki, şirkətlər qrupunun xarici ölkələrdən yalnız Gürcüstanda öz bölməsi fəaliyyət göstərir. Bu, 2011-ci ildə Gürcüstanda fəaliyyətə başlayan "Veyseloglu Georgia" şirkətidir. İ.Nurinin dediyinə görə, bu şirkəti yaratmaqda əsas məqsədləri Gürcüstanda satışı və məhsulların daha çox şəbəkəyə paylanmasını həyata keçirmək olub: "Sevindirici haldır ki, bu gün orada dükanlara girəndə biz öz məhsullarımızı görürük. Biznesin əsas məqsədi genişlənmək və böyüməkdir. Bu böyümək də həm daxili bazarda baş verir, həm də xarici bazara çıxmaqla o bazardakı potensialdan istifadə etməklə yaranır".

**Baş direktorun sözlərinə görə, "Ulduz" şokolad fabrikinin məhsullarının satışı xaricdə uğurla həyata keçirilir. Hazırda fabrikin istehsal etdiyi məhsulların təxminən 20 faizə qədəri ixrac olunur, 80 faizi isə daxili bazarda satılır:** "Biz yerli istehsalı artırmaqla idxalı da azaltmış oluruq. Bu, ölkədən valyuta çıxışını da azaltmış olur. İxracı artırmaqla da bağlı bizim öz missiyalarımız var. Bununla bağlı bir çox sərgilərdə iştirak edirik, eyni zamanda "AZPROMO"nun yaratdığı imkanlardan istifadə edirik".

**Şirkət istehsal gücünü daha da artırmaq istiqamətində də çalışır:** "Bu yaxınlarda yeni avadanlıqlar gətirmişik, yeni istehsal xətti açacağıq. İstehsal gücümüzün artması bizim qısa zamanda ixracat potensialımızı artıracaq, həm də daxili bazarda genişlənərək idxal olunan məhsulların payının aşağı düşməsi ilə nəticələnəcək".

**Şokolad istehsalından əlavə şirkətin həm də karamel istehsalı xətti var. İ.Nuri deyir ki, bu sahədə hələ ki perspektivlər çoxdur:** "Nəzərə alsaq ki, qənnadı sahəsində idxal faizi hələ də çox böyük olaraq qalır, ona görə də iş adamları bu sektora böyük inam bəsləyirlər".

**Onu da qeyd edək ki, qənnadı məmulatlarının təxminən 40 faizə qədəri ölkə daxilində istehsal olunur. Qalan tələbat idxal hesabına təmin edilir. Buna görə də hələ ki, "Veysəloğlu"nun başqa istehsal sahələrinə yatırım etməsi gözlənilmir:** "Qənnadı istehsalında genişlənmək üçün potensial böyükdür. Ona görə də diqqətimizi bu sahəyə yönəldirik".

**❑ DÜNYA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 67 (6956) 30 mart 2018



# Hadı Rəcəbli qalmaqallı çağırışını təkzib etdi

## Osman Gündüz: "Yəqin ali rəhbərlik tərəfindən deputatın sözlərinə təpkilər oldu ki, sözünü geri götürdü"

**Deputat Hadı Rəcəblinin Azərbaycanda sosial şəbəkələrin bağlanması ilə bağlı çağırışı mətbuatda geniş müzakirə mövzusuna çevrilib. Bu haqda məlumat yazan ölkə.az saytı bildirib ki, deputat son vaxtlar sosial şəbəkələr üzərindən Azərbaycan əleyhinə aparılan kampaniyadan danışaraq bu təklifi səsləndirib.**

"Bəzi texniki məsələlər var ki, ona qarşı mübarizə aparmaq hələ ki çətin görünür. Amma bir çox inkişaf etmiş ölkələrdə təhqirə və böhtana, dövlət və onun atributlarına qarşı təxribatlar yayıldığı üçün həmin saytlar və sosial şəbəkələr dərhal bağlanılır. Düşünürəm ki, artıq Azərbaycanda da bu addımları atmaq lazımdır".

Deputatın fikrincə, bu məsələdə bir addım belə geri çəkilmək olmaz. Çünki Azərbaycan prezident seçkiləri ərəfəsindədir, təxribatçıların da əsas məqsədi ölkədə sabitliyi pozmaqdır: "Dünyada gedən proseslərə baxsaq görərik ki, sosial şəbəkələr vasitəsilə Misir, Yəmən və digər ölkələri hansı vəziyyətə salıblar. Həmin ölkələri sadaladığım təxribatçı saytlar və sosial şəbəkələr vasitəsilə kütlə psixologiyasına uymaq yolu ilə xaos vəziyyətinə gətiriblər. Bütün bunlara görə də Azərbaycan xalqı həmin təxribatçı qrupların iç üzünü açmalıdır, mənəviyyatsızlığını ortaya qoymalıdır".

Lakin deputat yenidən açıqlama verərək mətbuatda sözlərinin təhrif olunduğunu, vacib və aktual siyasi bəyanatının mənasının dəyişikliyə uğradığını bildirdi.

**Hadı Rəcəbli bu haqda "Yeni Müsavat"a da açıqlama verib:** "Bilirsiz ki, Hadı müəllim heç vaxt belə sözlər deməz. Bir şeyi yadda saxlamaq lazımdır ki, yalan ayaq tutar, amma yeriməz. Həqiqəti yazmaq, kütlə psixologiyasına uymamaq lazımdır.

Məgər mən müsahibəmdə demişəm ki, sosial şəbəkələr, o cümlədən facebook bağlanılsın? Amma başqa cür yazıblar. Təxminən 3 il bundan əvvəl də mənə qarşı bu cür hərəkət etmişdilər. Yazmışdılar ki, "Hadı Rəcəbli interneti bağlayacaq".



Yalandır! Müxalif fikir ola bilər, amma bir qədər ədalətli olmaq lazımdır".

**Qeyd edək ki, bundan əvvəl də dəfələrlə hakimiyyət nümayəndələri arasında sosial şəbəkələrlə bağlı tənqidi fikirlər səsləndirilib. Elə bu günlərdə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov sosial şəbəkələrin idarəolunmaz amələ çevrildiyini açıqlamışdı:** "Bəzən kimsə hansısa namizədi tənqid edir, bunun özü də təşviqat sayılır. MSK, seçki komissiyaları bu hallarda pis vəziyyətdə qalır. İndiyə qədər bu amilə görə MSK hansısa namizədin namizədliyini ləğv etməyib. Sosial şəbəkələr bizim üçün çox pis vəziyyət yarada bilər. Biz beynəlxalq təşkilatların nümayəndələri ilə bu halda məsləhətləşib namizədlə bağlı addım atacağıq".

Ümumiyyətlə, son illərdə dünyanın bir çox ölkələrində hakimiyyət baş verən olaylara bu və ya digər şəkildə müdaxilələr olunmaması üçün sosial şəbəkələri bağlayıb və yaxud bu barədə təkliflər irəli sürüb. Məsələn, 2016-cı ildə Türkiyədə baş verən terror olayları zamanı bir müddət facebook, watsapp, twitter və youtube sosial şəbəkələri bağlanmışdı.

Rusiya prezidenti Vladimir Putin isə Kemerovo şəhərindəki "Zimnıy Vişnya" ticarət mərkəzində baş verən yanğın hadisəsi ilə bağlı kimlərinsə sosial şəbəkələr vasitəsilə müdaxilələr edib, qəsdən ölənlərin sayını çox göstərərək camaatı qızışdırmağa çalışdığını demişdi.

Azərbaycan gəldikdə isə hələ ki hansısa sosial şəbəkələrin bağlanmasına rast gəlinməyib. Üstəlik prezident İlham Əliyev dəfələrlə xarici səfərlərində, beynəlxalq konfrans və tədbirlərdə Azərbaycanda internet azadlığı olduğunu vurğulayıb.

Maraqlıdır, bəs prezident seçkisi ərəfəsində ölkəmizdə sosial şəbəkələr vasitəsilə hər hansı qızışdırıcı müdaxilələr ola bilərmi? Hansısa sosial şəbəkənin bağlanması hakimiyyət üçün "baş ağrısı" gətirə bilərmi? Ümumiyyətlə, sosial şəbəkələrin bağlanılması mexanizmi necə aparılır?

Mövzu ilə bağlı "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Yeni Müsavat"a danışıb. Ekspert deputatın çağırışını absurd adlandırıb: "Ölkədə prezident seçkisi gedən ərəfədə dövlət nümayəndəsinin belə bir məsuliyyətsizlik edərək açıqlamalar verməsi absurddur. Bu necə ola bilər axı?

Azərbaycanın ən ağır vaxtlarında belə məhdudiyyətlərin qoyulması, bu cür çıxışlar, çağırışlar edən olmayıb. İndi isə ilin-günün bu vaxtında bu cür açıqlamalar verilməsi təəssüf doğurur. Bu, "nəfəsliyi", "qapını bağlamaqdır" ki, bura heç kəs gəlməsin. Hesab edirəm ki, bu yolverilməzdir. Yəqin ali rəhbərlik tərəfindən Hadı Rəcəblinin sözlərinə təpkilər oldu ki, sözünü geri götürdü. Hadı Rəcəbli son illərdə bir neçə dəfə bu cür açıqlamalar verib. Bu açıqlamasını da o tipdən hesab edirəm. Hazırda seçki ilə bağlı ölkədə monitorinq aparan qurumlar var. Hesab edirəm ki, bu açıqlama onlar üçün "göydəndüşmə" oldu. Yəqin ki, bir müddət sonra xarici qurumların hesabatlarına baxanda deputatın həmin açıqlamasına rast gələcəyik. Buna görə də vətəndaşlar da, dövlət qurumlarındakılar da açıqlamalarında ehtiyatlı olmalıdırlar".

Ekspert sosial şəbəkələrin bağlanılması mexanizmindən də danışıb: "Müxtəlif ölkələrdə, o cümlədən Türkiyədə, Rusiyada sosial şəbəkələrin bağlanılmasının şahidi olmuşuq. Ümumiyyətlə, qlobal şəbəkənin mahiyyəti ondan ibarətdir ki, burada individual addımlar atmaq çətindir. Əgər hökumətlər qlobal resursların sahibləri ilə əməkdaşlıq edirlərsə, tərəflər razılığa gələ bilir. Adətən səbəb hansısa terrorların, olayların qarşısının alınması ilə bağlı olur. İnternet resurslarının sahibləri də əsasən böyük dövlətlərin istəyini həyata keçirir, nisbətən kiçik dövlətlərin istəklərinə maraqlı olmur. Məsələn, 2016-cı ildə Türkiyə hökuməti internet resuslarının sahiblərindən müəyyən məlumatların ötürülməsini və yaxud silinməsini istəmişdi. Lakin bunu əldə edə bilmədiyi üçün Hadı Rəcəblinin "metodundan" istifadə edərək, "baltanı kökündən vurdu" və müəyyən müddət sosial şəbəkələri bağladı".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# İlqar Məmmədov addım-addım azadlığa doğru...

## Natiq Cəfərli: "İlqar Məmmədov ya əfv sərəncamı, yaxud qəbul ediləcək amnistiya aktı ilə azadlığa çıxacaq"

**Avropa İnsan Hüquqları Məhkəməsi 2016-cı il avqustun 12-də həbs edilən və bir ay sonra azadlığa buraxılan REAL Hərəkatının icraçı katibi Natiq Cəfərlinin işi üzrə kommunikasiyaya başlayıb. Məhkəmə REAL funksionerinin şikayətini Konvensiyanın 3, 5, 11 və 18-ci maddələr üzrə qəbul edilən sayıb və Azərbaycan hökumətinə müvafiq suallar ünvanlayaraq, onların bu ilin iyul ayının 5-nə kimi cavablandırılmasını istəyib.**

Məlumat üçün bildirək ki, N.Cəfərli Cinayət Məcəlləsinin 308.2 və 192.1 maddələri ilə ittiham elan olunaraq həbs olunub, sonradan həbs-qətimkan tədbiri ləğv edilib.

N.Cəfərlinin Azərbaycan hakimiyyətindən hansı məbləğdə təzminat tələb etdiyi məlum deyil. Bununla bağlı "Yeni Müsavat"a açıqlama verən REAL funksioneri bunları deyib: "Barəmdə həbs-qətimkan qərarı seçilən kimi vəkilim Cavad Cavadov tərəfindən çox operativ və keyfiyyətli şəkildə Avropa Məhkəməsinə müraciət hazırlandı və göndərildi. Avropa Məhkəməsinin işləmə metodlarına baxdıqda kifayət qədər ağlabatan müddətdə şikayətə baxıb, kommunikasiya mərhələsinə başladılar. Azərbaycan hökumətinə iyul ayına qədər möhlət verilib. Orada təzminatla bağlı standart prosedur qaydaları var. Təzminat tələbi 20 min avroya qədərdir. Onun təqribən 10%-ə qədəri vəkil xərcləridir. Həmin standart prosedur qaydalarına görə müraciət olunub. Qərarda təzminatın nə qədər olacağını demək indidən çətindir. Çünki Avropa Məhkəməsinin özünün işlək mexanizmləri, hesablama qaydaları var. İyul ayının sonuna qədər Azərbaycan hökuməti göndərilən suallara cavab verməlidir. Bundan sonra təqribən 6 ay müddətinə



cavab çıxacaq. Ehtimal ki, bu ilin sonu, ən gec halda isə gələn ilin əvvəlləri qərar çıxacaq. Təbii ki, təzminatın həcmi önəmlidir. Amma təzminatın həcmindən əlavə, çox güman ki, qeyri-qanunu həbs olunmağımla bağlı qərar verənlərin inzibati qaydada cəzalandırılması da qərarda əks olunacaq. Biz yaxından izləyəcəyik ki, qərarın ikinci hissəsi, yəni qeyri-qanuni həbslə bağlı qərar vermiş insanların şəxslərin inzibati qaydada cəzalandırılmaları həyata keçirilsin. Səhv etmirəmsə, göndərdiyimiz şikayətdə 20 min təzminat tələb etmişik. Vəkillər standart olaraq, qeyri-qanuni şəkildə seçilən həbs-qətimkan tədbiri ilə bağlı Avropa Məhkəməsinin qaydalarına uyğun məbləğ qoyurlar. Məhkəmə özü sonda qərar verir. Tələb olunan məbləğ heç də sonda qərara salınmır, yəni özləri qərar verirlər".

**N.Cəfərli REAL-ın həbsdəki rəhbəri İlqar Məmmədovun işi ilə bağlı son yeniliklərdən də söz açdı:** "Martın 6-da İlqar Məmmədovla bağlı qərar qüvvəyə mindi. Artıq bütün prosedur qaydaları bitib. Azərbaycana qərarın yerinə yetirilməsi üçün 3 ay vaxt verilib. Bu müddət də iyun ayının 6-na qədər bitir. Ümid edirik ki, İlqar Məmmədov bu müddətə qədər, ən nəhayət, haqq etdiyi azadlığına qovuşacaq, Avropa Məhkəməsinin qərarı yerinə yetiriləcək, Avropa Şurası ilə Azərbaycan arasında yaranan gərginlik də sona çatacaq. Bu gərginliyin sona çatması hər iki tərəfin xeyrinədir. Azərbaycanın Avropa institutlarına inteqrasiya etməsinin zamanıdır. Dünyada gedən proseslər Azərbaycanın Avropa ilə daha sıx əməkdaşlıq etməsini tələb edir. Buna görə ümid edirik ki, verilmiş müddət başa çatana qədər İlqar Məmmədov azad olunacaq, ailəsinə, dostlarına qovuşacaq. Çox böyük ehtimalla İlqar Məmmədov may ayında veriləcəyi deyilən əfv sərəncamı, yaxud qəbul ediləcək amnistiya aktı ilə azadlığa çıxacaq. Avropa Məhkəməsinin qərarında hansı prosedur qaydaları ilə İlqar Məmmədovun azad edilməsi göstərilməyib. Tələb yalnız azad edilmə yönündədir. Hansı formada İlqarın azad edilməsi, açığı, Avropa institutlarını maraqlandırmır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 67 (6956) 30 mart 2018

**"Mənim çoxlu mülküm olması ilə bağlı deyilənlər iftiradır, təxribat məqsədilə yayılır". Bu sözləri bir gün əvvəl Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib. Cənab Şeyx QMİ-də keçirilən 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirdə bildirib onun haqqında, mülklərinin olması ilə bağlı yazılanlar təxribatdır.**

Hətta Şeyxülislamın sözlərindən belə məlum olub ki, bu barədə ölkə başçısı ilə də söhbəti olub: "Gizlətmirəm, mənim prezidentlə söhbətlərim olur. Onda da heyrətimi gizlətmirəm ki, bu qədər iftiranın səbəbi nədir. Deyirlər, şeyxin xaricdə, ya da burada çoxlu mülkü var. Bunların hamısı təxribatdır. Əvvəla, sevinin ki, sizin şeyxiniz bu cür güclü olsun. İkincisi isə xaricdən onsuz da dini liderə qarşı iftira var, bunu daxildə də davam etdirməklə nə əldə edirsiniz? Xaricdən həm prezidentimizə, həm də mənə - Şeyxülislama qarşı belə çirkin təxribatlar törədilir. Ölkə daxilində bəziləri "prezidentə qarşı deyiləni qəbul etmirəm, amma şeyx haqqında deyilənlər düzdür", - deyir. Bu, necə olur? Demək, sən təxribatla yenə də barışmış olursan. Deyirlər, nəzir qutularına nəzarət edirəm və sair. Yalandır. O qutularla mənim nə işim var?"



# Şeyxi xaricdən vuran əllər kimdir?

## QMİ sədrinin tikanlı açıqlamasının arxasındakı gerçəklər...

Ancaq QMİ sədrinin bir abzaslıq açıqlamasında bir xeyli mətləblər yatıb. Məsələn, Şeyx əvvəlcə bu məlumatları təxribat adlandırsa da, sonradan müsəlmanları onun varlı olmasına sevinməli olduğunu deməklə, bir mənada xəbərlərin haqlı olduğuna işarə edir. Daha bir maraqlı məqam isə Şeyxin nəzir qutularına nəzarət etmədiyini bildirməsidir. Məlum olduğu kimi, artıq uzun illərdir ki, mediada nəzir qutuları mövzusu müzakirə olunur. Daha əvvəl də QMİ-yə yönəlmiş ittihamlar olsa da, dini idarənin rəhbəri heç zaman nəzir qutuları ilə əlaqəsinin olmadığını deməmişdi. İndi belə çıxır ki, daha əvvəl belə bir bağlılığı olsa da, artıq Şeyxülislamın nəzir qutularına heç bir təsir imkanları qalmayıb, yəni başqa sözlə bu sahə onun nəzarətindən çıxarılıb.

Ancaq ən diqqət çəkən detal Şeyxin onu vurmağa çalışanlarla bağlı fikirləri olub. Şeyxülislam bildirib ki, ölkə xaricindən və daxildə ona qarşı da çirkin təxribatlar törədilir. QMİ sədri bəzilərinin "prezidentə qarşı deyiləni qəbul etmirəm, amma şeyxə haqqında deyilənlər düzdür" deməsini qeyd etməklə, əslində bir mənada hakimiyyət içərisində ona qarşı hücumlar olduğunu demək istəyib.

Əlbəttə, hər kəsə məlumdur ki, ümumiyyətlə, son illərdə siyasi müxalifət qanadından Şeyxə qarşı hər hansı bir hücum yoxdur. Ancaq bunun əvəzinə Şeyxülislamın hakimiyyət daxilindəki rəqibləri və ya, necə deyərlər, sevməyənləri onu zaman-zaman müxtəlif formalarda hədəfə alırlar. Bir zamanlar müsəlman dini icmaların fəaliyyətinə rəhbərlik faktiki olaraq Şeyxin idarəsinə verilsə də, son illərdə vəziyyət dəyişib, səlahiyyətlərin QMİ-dən alınaraq dövlətin müvafiq qurumlarının əlində cəmləndiyini görürük.

Hətta bir qədər əvvəl mətbuat QMİ-nin növbəti qurultayının nə zaman olacağı ilə bağlı sualı Şeyxə ünvanlayanda sərt reaksiya verməişdi. Şeyxülislam açıq şəkildə dedi ki, qurultay və yeni sədr seçkisi olmayacaq. Çünki 15 il əvvəl QMİ-nin qurultayında ruhanilər Şeyxülislamı ömürlük olaraq seçiblər. Ancaq görünür ki, bu sualın təkrarən gündəmə daşınması hörmətli QMİ sədrini çiləndən çıxarıb və ona qarşı hazırlanmış provokasiya olduğunu düşünüb.

O da maraqlıdır ki, QMİ sədri həm də xaricə işarə edib, deyib ki, xaricdən onsuz da dini liderə qarşı iftira var. Ancaq maraqlıdır ki, Şeyx iftiranın ünvanını deməyib. Əlbəttə, ilk baxışda xaricdəki iftiralar dedikdə QMİ sədrinin onun Çexiyadakı əmlakları ilə bağlı məlumatlar yayan mühacir azərbaycanlı aktivistləri qəsd etdiyini demək olar. Amma məsələ ondadır ki, QMİ sədri xaricdən olan ittihamları netləşdirməyə çalışmayıb. Daha çox ümumi danışıb və necə deyərlər, sualı açıq saxlayıb. Bu da Şeyxülislama qarşı daha geniş bir düşmənçilik cəbhəsinin olduğunu və ya ən azından Şeyxin buna işarə etdiyini deməyə əsas verir. Belə anlaşılır ki, Şeyx ölkə xaricində onun gözdən salınmasına çalışan "müxaliflərinin" olduğunu düşünür. Şeyxülislam hər nə qədər dünyada tanınan nüfuzlu din xadimi olsa da, eyni zamanda həm ölkə daxilində, həm də xaricdə onun ciddi rəqibləri var. QMİ-dəki tədbirdə məhz xaricdəki düşmənlərinə işarə etməklə Şeyxülislam ona qarşı olanların arxasında xarici düşmənlərinin olduğunu demək istəyir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Prezidentliyə namizədlərlə bağlı ilginc faktlar

## Bu ilin ilk üç ayında ölkədə doğulmuş 18 nəfərə İlham adı verilib, Sərdar adı son beş ilə görə liderdir

**Novator.az saytı prezident seçkisində namizəd olan şəxslərin adlarının nə dərəcədə populyar olduğu barədə maraqlı statistik araşdırma aparıb. Ədliyyə Nazirliyinin rəsmi saytından əldə edilən məlumatlarda qeyd edilib ki, bu ilin ilk üç ayında Azərbaycanda doğulmuş 18 nəfərə İlham adı qoyulub. 2014-cü ildən bəri isə 618 nəfər İlham adı alıb.**

Zahid adı bu il 11 nəfərə, son beş ildə 285 nəfərə verilib. 2018-ci ildə Araz adı 10 nəfərə, son beş ildə 278 nəfərə qoyulub. Sərdar və Fərəc adlarının hər birini 2018-ci ildə 5 nəfər alıb, amma son beş ilin göstəricisində Sərdar adı (233 nəfər) Fərəc adından (67 nəfər) üstündür. Hafiz adı bu il 4 nəfərə, son beş ildə 120 nəfərə qoyulub. 2018-ci ildə Qüdrət adı 1 nəfərə, 2014-cü ildən bəri 105 nəfərə verilib. Razi adını 2018-ci ildə heç kim almayıb. 2014-cü ildən bəri isə bu ad 19 nəfərə qoyulub.

Prezidentliyə dövlət başçısı İlham Əliyevlə yanaşı siyasətçilər Araz Əlizadə, Qüdrət Həsənquliyev, Zahid Oruc, Fərəc Quliyev, Hafiz Hacıyev, Sərdar Cəlaloğlu və Razi Nurullayev namizəddirlər.



"Seçki müşahidə missiyasında 80-dən çox beynəlxalq müşahidəçi yer alıb. Hamısı Avropa ölkələrindəndir, qısamüddətli müşahidəçilərdir. Onların hər biri 4 və ya 6 seçki məntəqəsində müşahidə aparacaq". Bunu isə Bolqarıstanın qeyri-hökumət təşkilatı olan GİSDİ-Azad və Demokratik Seçkilər uğrunda Vətəndaş Təşəbbüsünün missiya rəhbəri Mihail Mirçev dünən keçirdiyi brifinqdə deyib. O bildirib ki, GİSDİ uzunmüddətli və qısamüddətli müşahidə missiyaları təşkil edir: "Siyasət, media, seçki, hüquq və vətəndaş cəmiyyəti ekspertlərindən ibarət uzunmüddətli müşahidəçilər missiyasının müşahidə və araşdırmaları nəticəsində aralıq hesabat hazırlanıb. Bu hesabatın tam mətni aprelin 2-də təqdim olunacaq və GİSDİ-nin saytında yerləşdiriləcək".

M. Mirçevin sözlərinə görə, hesabatda GİSDİ ekspertlərinin makrosiyasi şərait və sistem, Azərbaycanda seçkiqabağı vəziyyət, hüquqi çərçivə və seçki administrasiyası, seçki siyahıları və seçicilərin qeydiyyatı, namizədlərin irəli sürülməsi və qeydiyyatı, seçki kampaniyası, seçki prosesində KİV-in rolu, şikayət və müraciətlər, seçki günü seçkilərin müşahidəsi və s. istiqamətdə müşahidələri yer alıb.

GİSDİ seçki müşahidəsi sahəsində Bolqarıstanın ən qocaman QHT-sidir. O, 1990-cı ildə təsis edilib. GİSDİ bir sıra beynəlxalq seçki müşahidə missiyalarında iştirak edib. O, 2003-cü ildən bəri Azərbaycanda seçkiləri müşahidə edir.

Prezidentliyə namizədlərin təbliğat-təşviqat kampaniyası davam edir. Kampaniyanın daha böyük kütlələri əhatə etməsi baxımından ən əsas komponenti İctimai Televiziyada həftədə üç gün (hər dəfə hər namizəd üçün 7, 5 dəqiqə olmaqla) namizədlərin və onların səlahiyyətli nümayəndələrinin çıxışlarıdır. Artıq namizədlər və onların səlahiyyətli nümayəndələri 6 dəfə İTV-də çıxış ediblər. Çıxış edənlərin fikirləri, debatlarda özlərini necə apardıqları seçki prosesi ilə maraqlananlar üçün demək olar ki, aydındır.

Prezidentliyə namizədliyini irəli sürmüş və MSK tərəfindən son anda qeydə alınmayan AĞ Partiyanın sədri Tural Abbaslı "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bütün debatları izləyib və kimə səs verməklə bağlı qərara gəlib: "Bəli, artıq təbliğat-təşviqat mərhələsinin əsas hissəsi olan teledebatların yarıdan çoxu geridə qalıb. Demək mümkündür ki, debatları izləyən istənilən vətəndaş üçün artıq bir çox mətləblər və namizədlərin kimlikləri aydınlaşıb. Ancaq AĞ Partiya olaraq bizim üçün yeni və gözlənilməz heç nə olmadı. Çünki biz debatlardan öncə bu namizədlərin siyasi mövqeləri və seçkidə tutacaqları mövqeləri analiz edib özümüz üçün nəticələr çıxarmışdıq. AĞ Partiyanın prezidentliyə namizədi olaraq mənim MSK tərəfindən qeydə alınmamamdan sonra biz durum dəyərləndirməsi etdik. Qərar belə oldu ki, partiya olaraq hər hansı bir namizədi dəstəkləmək barədə bəyanat verilməsin. Bizim öz namizədimiz olmadığı üçün partiya üzvlərinə seçimlərində sərbəstlik verildi. Yeni fərdi şəkildə partiya üzvlərimiz kimə istəsələr səs verə bilərlər. Mənim şəxsimə gəldikdə isə mən öz hüququmdan istifadə edərək Sərdar Cəlaloğluna səs vermək niyyətindəyəm".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 67 (6956) 30 mart 2018

**Rusiyada yaşayan baş nazirin sabiq birinci müavini Abbas Abbasovun Avropadakı "söyüş müxalifəti"nə dəstək verdiyi barədə səslənən iddialar gündəmdən düşmür. Günlərdir ətrafında gedən bu söz-söhbətlərin qarşısında sabiq vitse-primyer susqunluq nümayiş etdirir.**

# Abbas Abbasova həbs təhlükəsi

## Fəzail Ağamalı: "Rusiya özünə hörmət edən hüquqi dövlətdirsə, onu Azərbaycana təhvil verməlidir"



2013-cü il prezident seçkisi ərəfəsi "Milyarderlər ittifaqı" yaradaraq rəsmi Bakı əleyhinə fəaliyyət göstərən A.Abbasovla bağlı yeni üzə çıxmış iddialar ölkə iqtidarının səbir kasasını doldura bilər. Sabiq dövlət müşaviri Qabil Hüseynli baş nazirin keçmiş müavininin həbs edilərək Azərbaycana gətirilməsinin mümkünlüyündən danışıb.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** A.Abbasov barəsində bu iddiaları ortaya atan jurnalistin kifayət qədər peşəkar olduğunu söylədi: "Bu məlumatları mətbuatdan oxudum. Məsələni ictimailəşdirən və cəmiyyətə təqdim edən Müşfiq Ələsgərli tanıdığım ciddi jurnalistlərdən biridir. Yazdığı yazılar və dediyi sözlər daim real faktlara söykənib. Bu baxımdan onun yazdığında göstərilən faktlara inanmaya bilmirəm. Yadınıza gəlirsə, 2013-cü ilin prezident seçkiləri ərəfəsində də Abbas Abbasov hoqqabazlıq edərək, "Milyarderlər ittifaqı" deyilən bir qurum yaratdı, müəyyən insanları ora cəlb etdi. Rüstəm İbrahimbəyovu də tovlayaraq, bu prosesə cəlb etmişdi. Amma Abbas Abbasov fiaskoya uğradı. Bu başqa cür də ola bilməzdi. Çünki Azərbaycanda prezident seçkisinin taleyini həll edən Azərbaycan xalqı və onun iradəsidir. Kənardan bu və ya buna bənzər təsirlər olsa da, bunların önündə xalqımızın iradəsi dayanır. Düşünürdüm ki, Abbas Abbasov özü üçün nəticə çıxarar, gedib başqa işlərlə məşğul olar, Azərbaycanla bağlı çirkin əməllərindən geri çəkilər. Amma görünən odur ki, Abbas Abbasov nəticə çıxarmayıb. Mənə elə gəlir ki, Azərbaycan dövləti o, vəzifədən uzaqlaşdırıldığı vaxt konkret addımlarını atmalı idi. Onun əməllərinə hüquqi qiymət verilməli idi ki, ikinci belə bir biabırçı hadisə baş verməyəydi. Abbas Abbasov bu əməllərlə məşğul olursa, onun haqqında deyilənlər öz təsdiqini taparsa, o, hökmən Azərbaycana gətirilməli, onun haqqında ölkənin qanunları çərçivəsində tədbirlər həyata keçirilməlidir. Onun tərəfdarıyam ki, Azərbaycan dövlətinə, onun zəifləməsinə, ölkədə qarşıdurmanın yaranmasına, sabitliyin pozulmasına kim xidmət edirsə, ona



qarşı çox sərt tədbirlər həyata keçirilməlidir. Onlara hər hansı bir güzəşt ola bilməz".

**F.Ağamalı sabiq məmurun barəsindəki iddialarla bağlı susqunluğuna da toxundu:** "Yadınıza gəlirsə, bundan öncə bu və ya buna bənzər digər ittihamlar Abbas Abbasovun ünvanına səsləndiriləndə o, bunları təkzib edir, özünün dövlətə sədaqətini ifadə edirdi. Lakin altdan-altdan öz işlərini də görürdü. Hər halda, indi onun reaksiya verib-verməməsindən asılı olmayaraq, onunla bağlı faktlar dəqiq və ciddi şəkildə araşdırılmalıdır. Hüquqi müstəvidə bu məsələlər çözülməlidir. Onun etdiyi hər bir əməlin cavabı verilməlidir. Tamamilə əminəm ki, Vidadilərin, Orduxanların və onlar kimi tərbiyəsiz insanların arxasında kimlərsə dayanıbdır. Onlar maliyyələşdirilir, ayrı-ayrı faktlarla "silahlandırılır". Bu böyük bir şəbəkədir, bu şəbəkənin dibinə qədər gedib, onu son nöqtəsinə qədər üzə çıxarıb, sərt mövqe ortaya qoyulmalıdır. Bu cür yaramazların qarşısı alınmasa, düşünürəm ki, bizə heç bir hörmət gətirməyəcək. Azərbaycan prezidenti və onun ailəsi ölkənin konstitusiyası və qanunları ilə birmənalı şəkildə müdafiə olunur, onlara qarşı təhqirlər, təhdidlər Azərbaycanda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət məsuliyyəti yaradır. Bununla bağlı bizlər Cinayət Məcəlləsinə dəyişikliklər də etmişik. Bu hüquqlardan tam şəkildə istifadə edilməlidir. Söyüş söyənlər və onların arxasında duranların hamısı qanunlar qarşısında cavab verməlidirlər".

**Deputat A.Abbasovun ölkəyə gətirilməsinin tam mümkün olmasından da söz açdı:** "Abbas Abbasov Azərbaycan qanunlarını pozursa, bu cür təxribatlarla məşğul olursa, Rusiya da özünə hörmət edən hüquqi dövlətdirsə, onu Azərbaycana təhvil verməlidir. Bunun başqa bir alternativini görmürəm. Bugünkü Rusiya üçün Abbas Abbasov o qədər də ciddi fiqur deyil. Onun Azərbaycana gətirilməsində hər hansı bir problem görmürəm".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

## "Rusiya Azərbaycana keyfiyyətsiz silahlar satıb" iddiasına rəsmi mövqe bildirildi

**"Son günlər xarici və yerli kütləvi informasiya vasitələrində Azərbaycanın Rusiyadan əldə etdiyi silahların yararsız olması ilə bağlı müxtəlif şayiələr yayılıb.**

Rəsmi olaraq bildiririk ki, bu kimi xəbərlər həqiqətə uyğun deyil və onların yayılması təxribat xarakteri daşıyır". Bu barədə APA-ya Müdafiə Nazirliyindən bildirilib. Nazirlikdən qeyd olunub ki, Azərbaycan müəyyən istehsalçı ölkələrdən müxtəlif növ silahların alınması və əldə edilməsinə xüsusi diqqət yetirir.

"İşğal olunmuş ərazilərimizin azad edilməsi məqsədilə biz döyüş potensialımızın artırılması üçün lazım olan ən yaxşı, keyfiyyətli və effektiv hərbi vasitələri diqqətlə seçərək əldə edirik.

Azərbaycan ordusunun silahlanmasına qəbul edilən Rusiya istehsalı olan yeni silahlar müasir silah sistemlərinin yüksək tələblərinə cavab verir, eləcə də qoşunlarımızın, xüsusilə müdafiənin ön xəttində döyüş tapşırığı yerinə yetirən bölmələrimizin manevr və atəş imkanlarını xeyli artırır", - deyə məlumatda vurğulanır.

# İqtidar və müxalifət nimdaş şüarlardan əl çəkə bilmir

## Hər iki düşərgə 25-30 il öncədə ilişib qalıb; ekspertlər bunun səbəblərini açıqlayır

**Azərbaycan iqtidarı və müxalifəti arasında oxşar bir cəhət formalaşıb. Hər iki düşərgə yeni siyasi texnologiyalara istinad etmirlər. 25-30 il öncəki nimdaş şüar və tezisləri bu gün də dövriyyədən çıxarmaqda maraqlı görünmürlər.**

İqtidar özünün siyasi rəqiblərini "erməni dəyirmanına su tökən ünsür" adlandırır. Yaxud müxalifəti ittiham edəndə "AXC-Müsavat cütlüyünün 1 illik hakimiyyəti dövründə Azərbaycan dağılmışdı" fikrini səsləndirir.

Müxalifət isə hərəkat dövrü meydanda səsləndirdiyi şüarlardan əl çəkə bilmir. Hələ də özlərinin aksiyalarında "Azadlıq", "İstefa" şüarları qışqırırlar. Müxalifət partiyalarının müsahibə və çıxışlarına qulaq asdıqda, açıqca görünür ki, onların tezisləri, proseslərə baxışları nimdaşlaşıb.

Bunun səbəbləri nə ola bilər? Nədən hər iki düşərgə nimdaş, köhnə, vətəndaşda heç bir emosiya yaratmayan şüar və tezislərdən əl çəkə bilmir?

**AĞ Partiya başqanı Tural Abbaslı hər iki düşərgənin indiki yerlərindən razı olduqlarını bildirdi:** "25 ildir nə iqtidar, nə də müxalifət dəyişir. Görünən də odur ki, belə bir dəyişimdə heç bir tərəf maraqlı deyil. Bütün bunları analiz edəndə belə bir nəticəyə gəlmək olur ki, hər iki düşərgə indiki yerlərindən tam razıdır. Xalqı, milləti və dövləti isə düşünən yoxdur. İqtidar dəyişmək iddiasında olan müxalifət öz daxilində dəyişiklik etməyə məhkumdur. Ancaq iqtidarda olduğu kimi, müxalifətdə də heç kim heç nəyi və heç kimi dəyişmək istəmir. Artıq çoxdandır ki, müxalifət mübarizə apardığı rəqibinə bənzəməyə başlayıb. Bu bənzəmə həm siyasi cəhətdən, həm dözümsüzlük, həm də daxili demokratiya və başqa yanaşmalarda özünü aydın göstərir. Müxalifət də hakimiyyətdəkilər kimi, nə siyasi simaları, nə şüarları, nə də uğursuz və nəticəsiz mübarizə metodlarını dəyişir. Bütün bunlar bir yana, eynən hakimiyyətin yeniliyə və islahatlara yanaşması aqressivdirsə, müxalifət daxilində də istənilən yeniliyə və reforma cəhdlərinə aqressivlik göstərilir. Təəssüflə qeyd etməliyəm ki, artıq 25 ildir üz-üzə duran və demək olar ki, eyni yaş nəslinin nümayəndələri olanların dünyaya və siyasətə yanaşmaları da eynidir. Hər iki düşərgə əsasən "Mənim kimi düşünməyən düşmənimdir" düsturu ilə fəaliyyət göstərir. Bütün bunların əziyyətini də həmişə olduğu kimi xalq çəkir. Ancaq düşünürəm ki, artıq hər iki düşərgədə yenilik küləkləri əsməyə başlayıb, prosesin qarşısını ala bilməyəcəklər. Çünki dəyişim zamanın diktə etdiyi tələbdir. Zamanı gəlmiş dəyişikliklər isə qaçılmazdır".

**AMİP katibi Əli Orucov də eyni fikirdədir. O deyib ki, Azərbaycanın siyasi mənzərəsi və siyasi liderləri ötən illər ərzində yerində saymaqdadır:** "Nə siyasətə, nə də siyasi proseslərə yeni nəfəs, yeni yanaşma gətirilməyib. Sanki iqtidarda çoxluq təşkil edən kommunistlərlə, meydan hərəkatının yetirdiyi simalar bir-birləri ilə razılığa gəliblər ki, meydana kənar, yaxud da yeni simalar buraxmasınlar. Hər iki düşərgəyə də indiki status-kvo sərf edir. İqtidardakılar da, əks düşərgədə təmsil olunanlar da, bir zamanlar müəyyən siyasi oyunların və intriqaların içində olublar və əlaqəli fəaliyyət göstəriblər. İndinin özündə də bu bağlar qalır. İqtidar köhnə düşüncəli və inzibati-amirlik sisteminin yetirmələri olduqlarından yeniliyə qarşıdırlar və müasir idarəçiliyi bacarmazlar. Müxalifdəkilər də özlərini əziyyətə salıb novatorluğa həvəs göstərmirlər. Yəni hər iki tərəf öz mövqelərini və "iş yerlərini" itirmək istəmir. Lakin ən böyük problem gənc liderlərin, yeni nəsil siyasətçilərin yetişməsi üçün əlverişli mühitin və imkanların olmamasıdır. Demokratik cəmiyyətlərdə bu tipdən olan istedadlı liderlər tez bir zamanda parlaya bilir və dövlətin idarə edilməsində fəal rol oynayır. Çünki ona bütün imkanlar yaradılır, həmin siyasətçi xalqla maneəsiz təmas qura bilir, fikir və düşüncələrini, ideya və platformalarını ictimaiyyətə çatdıra bilir. Ona mənsub olduğu siyasi qüvvə də, dövlət də böyük dəstək verir. Bilir ki, siyasi rəqabət və ağıllı, peşəkar siyasilər hansı qüvvəni təmsil edirsə-etsin, onun faydasını dövlət və xalq görür. Hərəkətlilik, dinamizm, islahatlar və yeniliklər bəzən çətinliklərlə, kataklizmlərlə, qeyri-sabitliklərlə də müşayiət olunur. Bunu isə nə cəmiyyət, nə iqtidar, nə də müxalifət düşərgəsi arzulamır. Gənclik isə enerjili, yenilikçi, islahatçı, inkişaf və tərəqqiyə can atır".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**



# Sələfi kralın xələfinin etirafı

Xalid KAZIMLI

**Səudiyyə Ərəbistanının vəliəhdi, şahzadə Məhəmməd bin Salman açıq sözlü, cürətli, eyni zamanda diplomatiya-filan bilməyən adamdır. O, vəliəhd elan olunduğu, fövqəladə səlahiyyətlər qazandığı gündən bu günə qədər verdiyi qərarlarda, açıqlamalarda belə bir adam olduğunu təkrar-təkrar göstərib.**

Əvvəlcə əmisi uşaqlarını kütləvi şəkildə damlatdıran vəliəhd-şahzadə onları milyardlarına görə incitdiyini gizlətmədi, pullarını aldı, buraxdı.

Daha sonra o, illərdən bəri öz aralarında örtülü-örtülü qazan qaynadan Səudiyyə Ərəbistanı və Türkiyənin gerçək münasibətlərinin nədən ibarət olduğunu açıqladı, Türkiyəni düşmən elan etdi.

Ardınca gündən-günə sərtləşən şəriət rejiminin yumşaldılacağına dəlalət edən addımlar atdı, qadınlara bəzi hüquqlar tanınmasına dair yeniliklər etdi.

Dünyada müxtəsər şəkildə MbS adlandırılan bu adam Amerika Birləşmiş Ştatlarının yanında olduğunu, regionda İranı və Türkiyəni öz dövlətinə rəqib, hətta düşmən saydığını gizlətmir.

Vəliəhdin gizlətmədiyi daha başqa mətləblər var.

Onlardan biri də Səudiyyə Ərəbistanının rəsmi dövlət din-məzhəbi olan sələfiliyin, daha konkret desək, vəhhabiliyin ABŞ-ın tələbi ilə Sovet İttifaqında, hazırkı postsovet məkanında yayılmasıdır.

MBS bunu "Vaşinqton Post"a müsahibəsində deyib və böyük etirafdır.

Vəhhabiliyi postsovet məkanında, xüsusilə də ölkəmizdə kimin yaydığı bizə sirr deyildi. Bu, lap əvvəldən bəlliydi. Siyasətdə, din-məzhəb aləmində təsadüfi şeylər olmur.

Tısbağa işıq direyinin başındadırsa, "bu ora necə çıxıb" deyə uzun-uzun düşünmək əbləhlikdir. Ona ora bir qoyan var, əl-əbət.

Biz də hələ 20 il öncədən ölkəmizdə şiddətlə yayılan vəhhabizmin hansı dövlətlər tərəfindən həm maliyyə baxımından, həm də ideoloji kadrlar sarıdan dəstəkləndiyini bilirdik, yazırdıq.

Amma məşhur atalar məsəli var: "Tutulmayan oğru, xandan, bəydən doğru".

Bir halda ki, vəliəhd-şahzadə özü də etiraf etdi, demək, məsələyə tam aydınlıq gəlib.

Bəli, lap əvvəlində vəhhabilik bir ingilis layihəsi olaraq Türkiyəyə qarşı düşünülmüşdüsə, Osmanlı imperiyasının süqutuna səbəb olmuşdusa, eyni kartdan daha bir böyük dövlətə - Rusiyaya qarşı istifadə edilməsi anlaşılandır.

Düzdür, SSRİ-nin dağılmasında bu təriqətin yayılmasının elə bir rolu olmadı, amma Rusiyanın başına sarınan kələf əngəli çox böyük və dolaşıq idi.

Məsələn, Çeçenistandakı milli-azadlıq hərəkatı qısa müddətdən sonra dini ekstremistlərin nəzarətinə keçmişdi, mücahidlər vəhhabilik müstəvisində birləşərək cihad etdiklərini düşünürdülər. Eyni proses Dağıstanda da başlamışdı, yarımçıq qaldı.

Ölkəmizə ən ciddi dini ekstemizm sızıntısı da elə şimal sərhədlərimizdən olmuşdu. Ən güclü vəhhabilik ocaqları şimal rayonlarımızda idi.

Bundan başqa, bu, döyüşkən təriqət Orta Asiya respublikalarında da geniş arealda təşkilatlana bilib.

İndi məlum olur ki, bütün bu proseslər heç də öz-özünə, yaxud da hansısa bir qeyri-hökumət təşkilatının, ekstremist qruplaşmanın təşəbbüsü və dəstəyi ilə getmirmiş, bu prosesin arxasında dünyanən ən varlı ölkələrindən ikisi dayanırmış - ABŞ və Səudiyyə Ərəbistanı.

Şiə məzhəbinə tapınanların əhalinin böyük əksəriyyətini təşkil etdiyi ölkədə vəhhabiliyin birdən-birə bu qədər çiçəklənməsi, yayılması böyük maliyyə resursları olmadan baş tuta bilməzdi.

Bu heç də əhalinin təbii şəkildə, aram-aram "dinə, imana gəlməsi" ilə deyildi, bu məsələyə böyük pullar qarışmasa, dini baxımdan ölkəmizdə bugünkü vəziyyət yaranmazdı.

Əslində şiəliyi hakim məzhəb statusuna qaldırmaq istəyən dövlət də dinc durmurdu, o da ölkəmizdəki tərəfdarlar və təəssübkeşlər korpusunu gücləndirirdi.

Anlaşılan budur ki, illərlə ölkəmizdə Səudiyyə Ərəbistanı və İranın gizli savaşı gedib. Hər dövlət özünə sadiq olan qüvvələri təşkilatlandırıb və maliyyələşdirib.

Durumun necə təhlükəli olduğu göz önündədir. Əgər o iki dövlət öz aralarında hansısa savaşa girişsəydilər (məsələn, Yəməndəki kimi), belə çıxır ki, onlara rəğbət bəsləyən vətəndaşlarımız da burda bir-birilə savaşmağa başlayacaqdılar.

Yaxşı ki, dövlət bu məsələni zamanında öz nəzarəti altına götürə bildi. Ancaq bu, tam olaraq deyil, problemlər qalır və nə qədər ki, ərəb və fars millətçiliyini din pərdəsi altında yaymaq istəyən qüdrətli dövlətlər var və bu siyasi xətti davam etdirməkdə israrlıdırlar, problem həll olunmuş sayılmaz.

Elə vəliəhd şahzadə də deyir ki, indi vəhhabiliyin yayılması Səudiyyə hökuməti tərəfindən deyil, ona tabe olan vəqflər tərəfindən maliyyələşdirilir.

Nə fərqi var ki? Pulu verən musiqini sifariş edir.

Deməl, ehtiyatı əldən verməmək olmaz.

# Hamını düşündürən sual: 11 apreldən sonra nə olacaq?

## Ölkə kadr dəyişiklikləri və islahatlar astanasında...

**Prezident seçkisində hazırkı dövlət başçısı İlham Əliyevin yenidən növbəti müddətə prezident seçiləcəyinə əksər siyasətçilər və siyasi ekspertlər şübhə etmir. Ona görə də bir çox siyasətçilər və politoloqlar diqqəti seçkidən çox, seçkidən sonraya yönəltməyi doğru sayırlar.**



Seçkidən sonra proseslər necə olacaq, siyasi, iqtisadi, idarəetmə islahatlarına gediləcəyi gözlənilirmi?

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a öncə bildirdi ki, Azərbaycan bölgənin açar dövlətidir. Bundan başqa, "Azərbaycanı Avropanın Şərqə açılan qapısı" adlandırırlar. Bu baxımdan, Qərb ölkələrinin Azərbaycandakı siyasi proseslərə və prezident seçkisinə marağı böyükdür. Azərbaycanda siyasi sabitliyin davamı tərəfdaş ölkələr üçün də, xalqımız üçün də vacibdir. Azərbaycanda budəfəki prezident seçkisi keçmişdəki seçkilərdən fərqlənir: "Növbəti prezident ölkəyə 5 deyil, konstitusiya dəyişikliyinə görə, 7 il başçılıq edəcək. Yəni növbəti prezidentin müddəti 2025-ci ildə bitəcək. Bu 7 il Azərbaycan üçün vacib dövrdür, bu dövrdə cəmiyyətin əsas gözləntiləri bunlardır: siyasi sabitliyin davamı; Dağlıq Qarabağ münaqişəsinin həlli; iqtisadi islahatların sürətləndirilməsi; sosial təminatların və maaşların artırılması, insanların alıcılıq qabiliyyətlərinin yüksəldilməsi.

Azərbaycanda formalaşan siyasi sabitliyin önəmi böyükdür. Bu sabitlik iqtisadi inkişafın sürətində əhəmiyyətli rol oynayır. Məhz bu siyasi sabitliyin varlığıdır ki, Azərbaycan böyük regional layihələri reallaşdıra bilir. Bunun əksi olsaydı, yəni məsələn, Ukraynadakına bənzər siyasi xaos Azərbaycanda olsaydı, iqtisadiyyat arxa planda olacaq, regional layihələrin reallaşdırılması risk altında olardı. Ona görə də Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum layihələrinə TAP, TANAP və Bakı-Tiflis-Qars layihələri də əlavə olundu. Növbəti 7 ildə Dağlıq Qarabağ münaqişəsinin həlli də vacib olacaq. Cəmiyyətin ən böyük gözləntisi iqtisadi islahatların sürətləndirilməsi ilə və sosial problemlərin həlli ilə bağlıdır. Digər tərəfdən, seçkidən sonra islahatların genişləcəyinə və hakimiyyətdə islahata meylli gənc kadrların sayının artacağına da ümidlər böyükdür".

**Politoloq qeyd etdi ki, prezident seçkisindən sonra bəzi nazirlərin dəyişdiriləcəyinə dair xəbərlərin sayı artır. Bu belə də olmalıdır, hakimiyyətə yeni nəfəs lazımdır, bunu dövlət başçısı da anlayır, təsadüfi deyil ki, elə son illərdə postlarında şişən nazirlər gənc kadrlarla əvəzləndi:** "Seçkidən sonra bu prosesin bir az daha sürətlənəcəyini düşünürəm. Dəyişməli olan nazirlər sırasında xarici işlər naziri Elmar Məmmədyarov da olmalıdır. Elmar Məmmədyarovun verdiyi açıqlamalar siyasi ekspertlər və cəmiyyətdə birmənalı qarşılanmır. Məsələn, Elmar Məmmədyarov uzun illərdir deyir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı substansiv danışıqlar aparılmalıdır. Aparılmır, indi nə edək? Elə "substansiv danışıqlar aparılmalıdır" deməklə deyil ki. Ermənistan istəmir və böyük dövlətlər İrəvanın işğalçı siyasətinə təsir etmirlər. 2016-cı ilin aprel savaşından sonra belə bir inam var idi ki, beynəlxalq aləm, o cümlədən həmsədr dövlətlər Azərbaycanın gücünü gördülər və əgər müharibənin bir daha təkrarlanmasını istəmirlərsə Ermənistan hakimiyyətinə təsir edəcəklər. Etmədilər, İrəvanın xətrinə dəymədilər və Azərbaycan Xarici İşlər Nazirliyi bu durumu xeyrimizə dəyişmək üçün gücsüz qaldı. Daha sonra Elmar Məmmədyarov həmsədrlə Krakov görüşündən sonda dedi ki, "kreativ təkliflər var". Ancaq üstündən aylar keçib, nə ortada Məmmədyarovun dediyi "kreativ təkliflər" var, nə də danışıqlarda irəliləyiş qeydə alınıb. Bizim vəziyyətdə, yəni torpaqlarımızın işğal olunduğu dövrdə yumşaq, başımızın altına yastıq qoyan əsaslandırılmamış açıqlamalar yox, kəskin bəyanatlar lazımdır ki, mesajlar həm bizi, həm də işğalçını silkələsin. Ermənistan bizim qırımımızı görməlidir və bu, yalnız Müdafiə Nazirliyinin işi deyil, həm də XİN fəal olmalıdır".

Bir sıra digər ekspertlər də seçkidən sonrakı proseslərlə bağlı çox ciddi gözləntilərin olduğunu bildirirlər. Ekspertlərin fikrincə, prezident Əliyev seçkidən sonra komandasını ciddi şəkildə yeniləyəcək, tamamilə yeni komanda, yeni düşüncə tərzi iş başına gələcək.

Bəzi ekspertlər, hətta hakimiyyət təmsilçiləri seçkilərin təxminən 7 ay irəli çəkilməsini həm də hakim komandada hər kəsin gözlədiyi ciddi kadr dəyişikliklərini sürətləndirmək niyyəti ilə bağlayırlar.

Bir çox ekspertlər, deputatlar və siyasətçilər isə Azərbaycanda hökumətin struktur və tərkibinin çox geniş olduğunu bəyan edirlər. Prezidentin Dövlət Dəniz Administrasiyasını və Dövlət Mülki Aviasiya Administrasiyasını Nəqliyyat və Rabitə Nazirliyinə birləşdirməsinə dair sərəncamından sonra üzvlərinin sayı 40-a düşən Nazirlər Kabinetimiz nəinki regionda liderdir, hətta dünyanın ən geniş tərkibli hökumətlərindən biridir. Düzdür, son illər Nazirlər Kabineti üzvlərinin sayı bir qədər azaldılıb - 2015-ci ildə Nazirlər Kabinetinin 45 üzvü vardı. Ancaq yenə də hökumətin tərkibini ciddi şəkildə ixtisar etməyə ehtiyac var. Müqayisə üçün qeyd edək ki, əhalisi bizdən 8 dəfə çox olan Türkiyədə 27, Gürcüstanda 20, Ermənistanda 25 nəfər hökumət üzvü var.

**Buna görə də hökumətdə aparılacaq islahatlar nəticəsində bəzi qurumların birləşdirilməsi, bəzi vəzifələrin ləğv olunması gözlənilənləndir. Dövlət başçısı da ötən il çıxışında bildirmişdi ki, idarəetmə sahəsində çox ciddi islahatlar davam etdiriləcək:** "Bu islahatlar daim aparılır. Ancaq gələn il daha da ciddi struktur islahatları aparılacaq. Biz xüsusilə idarəetmə sahəsində artıq yeni formatda, daha böyük səmərə ilə işləməliyik".

Kimlərin vəzifədən çıxarılacağı, hansı qurumların birləşdiriləcək və ya ləğv ediləcək, bu yolla kimlərin hakim komandadan kənarda saxlanacağı prezidentin səlahiyyətində olduğundan, əvvəlcədən qəti fikir söyləmək çətindir.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

Yeni Müsavat
N 67 (6956) 30 mart 2018

# 99 yaşlı xüsusi xidmət orqanlarına onlar rəhbərlik edib-adlar

## Məmmədbağır Şeyxzamanlı, Heydər Əliyev, Mədət Quliyev və daha kimlər?

**Azərbaycanın xüsusi xidmət orqanlarının yaranmasının 99-cu ili tamamlanıb. 28 mart 1919-cu ildə Azərbaycanda ilk milli təhlükəsizlik orqanı yaradılıb. Müstəqil Azərbaycanda təhlükəsizlik orqanları işçilərinin peşə bayramının martın 28-də qeyd olunması məhz həmin günlə əlaqəlidir və 1997-ci ildən qeyd edilməyə başlayıb.**


Heydər Əliyev


İlhüseyn Hüseynov


Fəxrəddin Təhməzov


Nəriman İmranov


Namiq Abbasov


Eldar Mahmudov


Mədət Quliyev

Azərbaycan təhlükəsizlik orqanlarının tarixini 3 dövrə bölmək olar: Azərbaycan Demokratik Respublikası, Sovet və müstəqil Azərbaycan Respublikası dövrləri. Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi 23 ay ərzində dövlət quruculuğu sahəsində xeyli iş görməyə müvəffəq oldu. Milli Ordunun təşkili prosesində general Səməd bəy Mehmandarov, general Əliağa Şıxlinski və general Məmməd bəy Sulkeviçin xüsusi rolu olub. Həmin sərkərdələrin rəhbərliyi ilə ordu quruculuğu işi 1920-ci ilin yanvarında başa çatdırılıb. Azərbaycan Demokratik Respublikasının təhlükəsizliyinin təmin edilməsi missiyasını da ilk zamanlar ordu öz üzərinə götürüb. Azərbaycan Demokratik Respublikasının hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə nazirlik tərkibində kəşfiyyat və əks-kəşfiyyat bölməsi təşkil edilib və Hərbi Nazirliyin Baş Qərargahının general-kvartirmeystr şöbəsinin kəşfiyyat və əks-kəşfiyyat bölməsi adlanıb.

Müstəqil Azərbaycan ADR-in varisi hesab olunduğundan, Milli Təhlükəsizlik Nazirliyi də ilk milli xüsusi xidmət orqanının varisi olmaqla əsasını bu bölmədən götürüb.

Qurumun ilk rəhbəri Məmmədbağır Şeyxzamanlı olub. Sonra onu bu postda qardaşı Nağı Şeyxzamanlı əvəzləyib.

ADR-in süqutundan sonra təşkilatın üzvləri repressiyalara məruz qalib, Məmmədbağır Şeyxzamanlı başda olmaqla əksər rəhbər heyət güllələnib. Nağı Şeyxzamanlı Türkiyəyə mühacirət edib. Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya adlanıb və Daxili İşlər Xalq Komissarlığının tərkibində fəaliyyət göstərib. Bir müddət sonra Dövlət Təhlükəsizlik Komitəsi (DTK) təşkil olunub. 1967-ci ilədək respublikanın təhlükəsizlik orqanlarına qeyri-azərbaycanlılar rəhbərlik ediblər. Həmin il Heydər Əliyev Azərbaycan DTK-nın sədri təyin olunub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yaranıb. Müstəqil Azərbaycanın ilk milli təhlükəsizlik naziri İlhüseyn Hüseynov olub. Onu bu postda 1992-ci ilin mayında Fəxrəddin Təhməzov əvəzləyib. 1993-cü ilin iyununda Nəriman İmranov bu posta təyin edilib. 1 il sonra, 1994-cü ilin oktyabrında Nəriman İmranovu əvəzləyən Namiq Abbasov 10 il nazir vəzifəsində çalışıb. Milli Təhlükəsizlik Nazirliyinin ləğvinə qədər quruma Eldar Mahmudov rəhbərlik edib - 2004-cü ilin iyulundan 2015-ci ilin oktyabrına qədər. Eldar Mahmudov vəzifəsindən uzaqlaşdırılandan və Milli Təhlükəsizlik Nazirliyinin 20-dən artıq əməkdaşının həbsindən sonra qurum ləğv olunub.

Həmin ilin dekabrında bazasında Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılıb. Prezidentin 14 dekabr 2015-ci il tarixli sərəncamı ilə Milli Qəhrəman, general-leytenant Mədət Quliyev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilib.

1958-ci ildə Gəncədə anadan olan M.Quliyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasını bitirib. 1983-cü ildən Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət edib. 1992-1994-cü illərdə DİN Terrorizm və Banditizmlə mübarizə şöbəsinin rəisi, 1994-1995-ci illərdə DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin Yevlax-Qazax Regional Şöbəsinin rəisi, 1995-1996-cı illərdə DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin reketlə mübarizə şöbəsinin rəisi, 1996-2001-ci illərdə DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə idarəsinin rəis müavini, 2001-2002-ci illərdə həmin İdarənin rəisi, 2002-2004-cü illərdə DİN Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, 2004-2006-cı illərdə Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəisi, 2006-2011-ci illərdə DİN Baş Mühafizə İdarəsinin rəisi vəzifələrində çalışıb. 2011-ci ildə ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi təyin edilib. 2012-ci ildə ədliyyə general-leytenantı ali xüsusi rütbəsi verilib. Eldar Mahmudov vəzifəsindən uzaqlaşdırılandan 3 gün sonra - 20 oktyabr 2015-ci ildə Mədət Quliyev milli təhlükəsizlik nazirinin 1-ci müavini təyin edilib.

Yeni yaradılan Xarici Kəşfiyyat Xidmətinin rəhbəri postuna təyinat alan Orxan Sedyar oğlu Sultanov barəsində isə məlumat azdır. Bilinən odur ki,1977-ci il təvəllüdlü Orxan Sultanov əvvəllər Xarici İşlər Nazirliyində işləyib. 2007-2011-ci illərdə Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin humanitar məsələlər üzrə I katibi vəzifəsində çalışıb. XİN-dən sonra MTN-in Xarici Kəşfiyyat İdarəsində işə qəbul edilib. MTN-in ləğvi və bazasında Xarici Kəşfiyyat Xidməti yaradılandan sonra qurumun rəisi təyin olunub.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Alpinistlərin itkin düşməsinin 100 günü...

## Havalar isindikcə, üç nəfərin tapılacağı ehtimalı artır

**Quba rayonunda dağlıq ərazidə itkin düşmüş gənc alpinistlər - Namin Bunyatzadə, Babur Hüseynov və Fəridə Cəbrayılzadənin axtarışları 3 aydan çoxdur ki, nəticə vermir. Alpinistlər ötən il dekabrın 23-də Tufandağ istiqamətində hərəkət edərkən onlarla əlaqə kəsilib.**

Ötən günlərdə alpinistlərin axtarışına Fövqəladə Hallar Nazirliyinin aviasiya dəstəsinin "Mi-17" markalı helikopteri, Şimal Regional Mərkəzinin axtarış-xilasetmə qrupu, Xüsusi Riskli Xilasetmə Xidmətinin dağ-xilasetmə dəstəsi və peşəkar alpinistlərdən ibarət könüllü dəstə, eləcə də xaricdən dəvət olunan alpinistlər cəlb olunublar. Lakin bütün bu cəhdlərə baxmayaraq, onların axtarışları nəticə verməyib. Ekspertlər bildirirlər ki, alpinistlərin soyuq qış aylarında tapılması mümkün deyil. Çünki ərazidə hava şəraiti və relyef olduqca mürəkkəbdir. Eyni zamanda qar uçqunları nəticəsində onların olduqları güman edilən yerdə hündür qar təpələri yaranıb. Buna görə də alpinistlər hesab edirdilər ki, yalnız havalar isindikdən sonra itkin düşən alpinistlərlə bağlı izə rast gəlinəcək.

Martın 28-də məlumat yayıldı ki, alpinistlərin axtarışları ilə əlaqədar FHN-də əməliyyat müşavirəsi keçirilib. Quba rayonunda dağlıq ərazidə itkin düşmüş alpinistlərin axtarışları ilə əlaqədar Əməliyyat Qərargahından bildiriblər ki, müşavirədə axtarış-xilasetmə işlərinə cəlb olunmuş qurumların rəhbər şəxsləri iştirak ediblər. Əməliyyat müşavirəsində alpinistlərin axtarışları ilə əlaqədar bu günədək görülən işlər təhlil olunub, hava şəraitinin istiləşməsi ilə əlaqədar axtarışlar üçün yaranan əlverişli şərait nəzərdən keçirilib və müvafiq göstərişlər verilib. Müşavirədə qarşıda duran digər məsələlər də müzakirə edilib.

FHN tərəfindən təşkil olunan axtarış-xilasetmə işlərinə nazirliyin peşəkar xilasedicilərindən ibarət dəstələri, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları cəlb olunublar.

**"Yeni Müsavat"a danışan dağçı-fotoqraf Elçin Quliyev bildirib ki, havalar isindiyi üçün alpinistlərin tapılması mümkündür:** "Hazırda ərazidə yalnız Fövqəladə Hallar Nazirliyinin əməkdaşları axtarış aparırlar. Onlar ərazidən hələ də geri çəkilməyiblər. Hər gün axtarış tədbirləri davam etdirilir. Bunun özü çox böyük işdir. Dünyanın heç bir yerində itkin düşən alpinistlər bu qədər axtarılmayıb. Hazırda ərazidə könüllü alpinistlərdən heç kim yoxdur. Lakin növbəti günlərdə biz də əraziyə gedib, axtarışlara dəstək verməyi düşünürük. İndiki vaxt orada artıq qarlar əriməyə başlayır. Buna görə də şuplamanı aparmaq daha rahat olacaq. Təxminən 15 gün sonra ərimə hiss olunacaq. May ayında isə qarlar daha sürətlə əriməyə başlayacaq. Bu proses yay ayılarına qədər davam edəcək. Orada Fövqəladə Hallar Nazirliyinin postu qurulub və bütün bunlara nəzarət edilir. Həm də diqqət edirlər ki, ərimə vaxtında alpinistlərin cəsədləri ortaya çıxarsa, su ilə axıb yerini dəyişməsin, heyvanlar onları yeməsin. Onların tapılmama ehtimalını düşünmürük. Çünki hamının gözü həmin o ərazidədir. Bundan əlavə də bütün faktlar da göstərir ki, alpinistlər qar uçqunu baş verən həmin ərazidədirlər. Əgər orada olmasalar, onda gərək biz müxtəlif saytlarda yazılan "qar adamı" və digər bu kimi mücərrəd şeylərə inanaq. Yəni reallıq budur ki, alpinistlər uçqunun altındadır. Bu adamların üstlərində heç bir şey yoxdur. Sadəcə olaraq, bir fərziyə var ki, bu adamlar çadır qurub içərisində yatdıqları vaxt, qar gəlib, altında qalıblar".

❑ **Əli RƏİS,**
**"Yeni Müsavat"**



# Sovetlərdə kimin günü xoş keçib

Zamin HACI
zaminhaci@gmail.com

**"- Ona vaxt verək, - hindular dedilər. - SABAH ELƏ BU GÜNDÜR. SABAH BU GÜNÜN YALNIZ BAŞQA ADIDIR".**

*(Folkner, "Qırmızı yarpaqlar")*

**Bu yaxında dəyərli yazıçı-publisistimiz Seymur Baycanla məktublaşırdıq, bəy sovet mifləri haqda kitab yazmağın önəmli olduğunu bildirdi. Sözgəlişi, Seymur bəy uzun müddətdir Tiflisdə məskunlaşıbdır, cəlayi-vətən olmuşdur, deyəsən, uca millətimiz və sevgili xalqımız bir qiymətli oğlunu da artıq dərbədər salmağı bacarmışdır. Nə deyə bilərik, gedənləri saxlamağa gücümüz yoxdur. Uğur olsun. Barı arxalarıyca su ataq, xaricdə qumluğa düşüb qurumasınlar, qol-budaq atsınlar, kölgələri haçansa üzübəri düşsün.**

Uzun sözün qısası, həmin yazışmamızda Seymur bəy məşhur sovet qəhrəmanlarından birinə də toxundu. Yaşlı adamlar o əhvalatı yaxşı bilirlər: bir nəfər sovet əsgəri faşistlərlə döyüşdə sinəsini pulemyota sipər edir, döyüş nöqtəsini bədəniylə bağlayır, nəticədə qalib gəlirlər və sairə. Bu, Aleksandr Matrosovun əhvalatıdır. Ancaq məsələ ondadır ki, SSRİ dağılandan sonra camaat araşdırma aparmışdı, məlum olmuşdu heç belə adda bir adam yox imiş. Yəni sənədlərdə filan vaxt SSRİ-nin filan şəhərində Matrosovun doğulduğu yazılıb, ancaq ərazidəki VVAQ şöbəsində bu doğum faktı yoxdur. Sonradan birtəhər düzüb-qoşmağa cəhd elədilər ki, guya bu, Şakircan adlı başqırd olmuşdur, yetimlər evində böyümüşdür, özünə sonradan Matrosov adını götürmüşdür.

Əlbəttə, tam inkar eləmək olmaz ki, Şakircan doğrudan da alman pulemyotunu sinəsi ilə bağlayıb. Ümumən o müharibədə yüzlərlə bənzər hadisənin olduğu deyilir, heç çoxunun adı yadda saxlanılmayıb. Sadəcə, Stalinə belə bir fakt lazım imiş ki, camaatı əliyalın, bədəni hesabına almanların qabağını saxlamağa yollasın. Propoqanda üçün idi. Generalları repressiya et, faşistlərlə ittifaq bağla, ölkə kommunist rejimində çöksün - nəticədə də "ət hesabına", milyonları qırdırıb müharibəni udmağa məcbur idi.

Bütün tarix kitabları, xronikalar yalan-palanla doldurulmuşdu və 70 il birtəhər camaatı bununla yola verdilər, ancaq axırda imperiya darmadağın oldu. Ancaq qəribədir ki, SSRİ mifi hələ camaatın qəlbində qalmaqdadır. Bu yaxında hətta bir gülməli vəziyyətlə rastlaşdım: 1992-ci ildə, yəni SSRİ dağılandan bir il sonra doğulmuş cavan oğlan mənə - 1973 təvəllüd və o dövlətin nə olduğunu canlı görmüş adama isbat eləməyə çalışırdı ki, SSRİ yaxşı dövlət olmuşdur. Çörək növbələri, boş dükanlar, konserva qutusu maşınlar üçün on illər növbəyə durmaq, türmədə yaşayıb xaricə çıxmağa həsrət qalmaq, rəsmi senzura, rəsmi birpartiyalı diktatura rejimi nə deməkdir, təbii, mən ona başa sala bilməzdim. Çünki belə adamların "atası, dayısı o vaxt kef edibdir". Amma reallıqda bir-iki oğru alababat yaşayırdı. Partnomenklatura üzvləri.

SSRİ dünyanın hər yerindəki sosialist dəlmə-deşiklərinə traktor və kombayn pay verirdi (40 ölkəyə), ancaq 1985-ci ilin rəsmi statistikası var: SSRİ hər hektardan 15 sentner taxıl yığırdı, bu rəqəm ABŞ-da isə 50 sentner idi. 1970-ci illərdə İsrail-Ərəb savaşları hesabına neftin dünya bazarında qiyməti qalxmışdı, Sibirdə təzə yataqlar tapılmışdı, bir az bunun hesabına sovetlərə pul gəlirdi, o neft pulu ilə camaata çörək çatdırırdılar. Ancaq 1980-ci illərin ortalarında neftin dünya qiyməti qəfil düşdü, bununla da SSRİ-nin beli qırıldı. İttifaqa zorla doldurulan respublikalar işıq yananda qaçıb gizlənən tarakanlar kimi hərəsi bir tərəfə dağılışdı. Hərçənd, həmin tarakanlar indi də keçmiş SSRİ məkanında müxtəlif yerlərdə ağalıq edirlər, bu səbəbdən "İndikindən o vaxtkılar yaxşı idi" demək mənasızdır. İndikilər elə o vaxtkılardır. Atributlara əl gəzdirib dona giriblər. Bəzi yerlərdə, misal üçün, Rusiyada heç himin musiqisini də dəyişməyə ehtiyac duymayıblar. O vaxt pambıq pripiskası edənlər yenə pripiskaya başlayıblar. O vaxtın raykom katibləri indi komitə sədridir. Hətta müxalifəti də köhnə komsomolçulardan düzəldiblər.

Camaat çox şeydən xəbərsiz yaşayanda özünü xoşbəxt hiss edir. Bu yalançı xoşbəxtliyin ömrü, təbii, təpik sənə dəyənə qədərdir. Rəsmi senzuranın yaratdığı uydurma səadətin nə olduğunu bir misal aydın göstərir. Təzəlikcə Rusiyada, Kemerovoda faciə oldu, 41-i uşaq olmaqla 65 nəfər yanıb öldü. Rus mediasında mən bunun analoqunun SSRİ-də baş verdiyini oxudum. Açığı, ilk dəfə oxuyurdum. Sən demə, 1961-ci ildə Çuvaşiyanın Elbarusovo kəndində məktəb yanıb və 106 uşaq ölüb. Bunların tam yarısı 7 yaşınacan uşaqlar olub. Şübhə etmirəm ki, bunu 92-ci ildə doğulan oğlanın "atası və dayısı" indi də bilmir.

# İran-Azərbaycan ziddiyyətləri əməkdaşlıqla əvəzlənir

**İran İslam Respublikasının prezidenti Həsən Ruhaninin Azərbaycana iki günlük səfəri başa çatdı. İran liderinin budəfəki ziyarəti əvvəlkilərdən yaxşı mənada yetərincə fərqləndi. Bakıda imzalanan tarixi sənədlər və keçirilən görüşlər, ilk dəfə baş tutan biznes-forum, prezidentlər səviyyəsində verilən bəyanatlar iki qonşu dövlət arasında əlaqələrin dinamik, qarşılıqlı faydalılıq prinsipi əsasında inkişafda olduğuna şübhə yeri saxlamadı. İqtisadi əlaqələr isə bir qayda olaraq sağlam siyasi münasibətlərin mühüm alt bazası hesab edilir, qarşılıqlı iqtisadi bağlar həm də siyasi bağlara vəsilə olur.**




# Bakı-Tehran münasibətləri yeni mərhələdə - Ruhaninin Azərbaycan səfərində tarixi nəticələr

## İran liderinin ölkəmizə ziyarəti bəzi "i"lərin üzərinə nöqtə qoydu; Tehran ərazi bütövlüyümüzə sadiq olduğunu bəyanladı; işğalçı ölkə üçün başqa bir bəd müjdə: Ermənistan ətrafında iqtisadi-nəqliyyat blokadası güclənir...

Ruhaninin Azərbaycan budəfəki səfərini ən əvvəl bu rakursdan qiymətləndirmək lazım gəlir. "Yeni Müsavat" xatırladır ki, Həsən Ruhani Bakıya Türkmənistandan gəlib. Bu da səbəbsiz deyildi. Səfər həm də yeni bir formatda - Bakı-Tehran-Aşqabad üçlü formatda qarşılıqlı əlaqələrin inkişafı üçün möhkəm təməl yaratmaq niyyəti güdürdü. Bundan ötrü üç ölkənin iqtisadi-ticari, insani və başqa potensialı, müştərək əməkdaşlıq üçün sahələr kifayət qədərdir. Bu üç dövlətin böyük neft-qaz ölkəsi və qonşu olmasının, bir-biri üçün əlverişli bazar olmasının özü elə açılmamış ciddi potensial deməkdir və Ruhaninin səfərindən sonra yəqin ki, onun tədricən işə düşməsinin yeni-yeni təzahürlərinin şahidi olacağıq.

İran prezidentinin Bakı səfəri bu xüsusda mühüm stimul və bənzərsiz bir təkan ola bilər və olacaq da *(səfər barədə daha detallı ayrıca yazıda tanış ola bilərsiniz)*. Öncəliklə bunu qeyd edək ki, Bakıda imzalanan sənədlər və qəbul edilən ortaq qərarlar baxımından səfər əslində ikitərəfli əlaqələrdə yeni inkişaf mərhələsinin başlanması kimi xarakterizə edilə bilər.

*****

Tehran-Bakı əlaqələrinin yeni və daha yüksək fazaya keçməsi Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan üçün məxsusi önəm daşıyır. Doğrudur, bu dinamikada qonşu İran da maraqlıdır - ələlxüsus son vaxtlar ABŞ-dan əsməyə başlayan güclü anti-İran ruzigarları fonunda. Azərbaycan üçün isə təcavüzkar Ermənistanın təklənməsi və blokadasının güclənməsi baxımından böyük önəm daşıyır. Bu proses davam edir. Təsadüfi deyil ki, Ruhaninin budəfəki Bakı səfəri işğalçı ölkədə daha böyük təlaş doğurub.

Başqa yandan, güclü siyasi əlaqələrə əsaslanan, möhkəm tarixi və mədəni köklərə malik iki qonşu ölkə olaraq İran və Azərbaycanın münasibətləri dünya üçün müsbət qonşuluq nümunəsi sayıla bilər. Bu, həmçinin iki dövlətin bir-biri üçün artan siyasi əhəmiyyəti və bağlılığı deməkdir. Bu kontekstdə Həsən Ruhaninin Bakıda bəyan elədiyi "Azərbaycanın təhlükəsizliyi və suverenliyi bizim təhlükəsizliyimiz və suverenliyimizdir" sözləri dünya ilə yanaşı, Ermənistana da yaxşı bir mesajdır.

Bütövlükdə son dörd il ərzində İranla Azərbaycan arasında imzalanmış önəmli sənədlər ikitərəfli əlaqələrin hərtərəfli inkişafına böyük təkan verib. Bu dəfə diqqəti xüsusi çəkən həmçinin, İranla Azərbaycan arasında Xəzər dənizində müvafiq blokların birgə işlənməsi haqqında imzalanan Anlaşma Memorandumu, Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında saziş oldu. Bunlar tarixi əhəmiyyət daşıyan sənədlərdir. Niyə?

Əvvəla, Xəzərlə bağlı razılaşma dənizin yekun hüquqi statusu ilə bağlı İranla Azərbaycan arasında uzun illərdir mövcud olan ziddiyyətlərin, nəhayət, əməkdaşlıqla əvəz olunmasını təmin edə bilər.

İkincisi, "İpək Dəmir yolu"nun mühüm seqmenti sayıla Astara-Rəşt dəmir yolunun tikintisinin maliyyələşdirilməsi haqqında saziş, müvafiq tikinti işlərinə başlanması haqda qərar çox böyük iqtisadi hadisədir. Çünki bununla Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində mövcud olan yeganə boşluq aradan qalxmış olacaq. İran və Azərbaycan dəmir yolu sistemləri həmişəlik bir-birinə birləşməklə iki ölkəni və iki xalqı bir-birinə daha sıx bağlayacaq. Habelə qitələri birləşdirəcək Astara-Rəşt dəmir yolu qısa müddət ərzində inşa olunacaq və bütün Avrasiya regionu üçün yeni imkanlar açacaq. Bu yerdə yada salaq ki, sözügedən marşruta Hindistan, Pakistan, Çin, Əfqanıstan kimi ölkələr də qoşulmaq niyyətlərini bəyan edib.

*****

Ruhaninin Bakı səfəri çərçivəsində İranla Azərbaycan arasında imzalanan rəsmi sənədlərin olduqca xoş məram, qarşılıqlı etimad və ehtiram, müştərək mənafe və mehriban qonşuluq münasibətləri sayəsində gerçəkləşdiyi də məxsusi qeyd olunmalıdır.

Nəhayət, Azərbaycan üçün bu da çox önəmlidir ki, İran dövlət başçısı Bakıda ölkəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə sayğısını, sərhədlərin zorla dəyişdirilməsinin əleyhinə olduğunu birmənalı ortaya qoydu. Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi çərçivəsində həlli ilə bağlı Azərbaycanın haqlı mövqeyinin yanında olduğunu göstərə bildi. "Bizim üçün əhəmiyyətlidir ki, ölkələrin ərazi bütövlüyü və bölgənin coğrafiyası dəyişməməlidir", "Dünya ictimaiyyətinin hörmətlə yanaşdığı beynəlxalq prinsiplər məsələnin həlli üçün alətə çevrilməlidir". Həsən Ruhaninin bu sözlərini hər şeydən öncə ikinci erməni dövləti xülyası ilə yaşayan mənfur qonşularımıza "daşı ətəklərindən tökmək üçün" yaxşı bir ismarış saymaq olar...

❑ Siyasət şöbəsi,
"Yeni Müsavat"

Yeni MÜSAVAT
N 67 (6956) 30 mart 2018

**Xəbər verdiyimiz kimi, martın 28-29-da İran prezidenti Həsən Ruhani Azərbaycana səfər edib. İki günlük səfəri zamanı Ruhani Azərbaycan dövlət başçısı ilə təkbətək və heyətlərin iştirakı ilə görüşüb, eləcə də hər iki prezident martın 29-da keçirilən biznes forumda iştirak ediblər.**





# Ruhaninin Bakıya gətirdiyi əsas mesajlar

## İran prezidentinin Bakı səfəri iki ölkə arasında daha dərin əməkdaşlıq razılaşmaları ilə yadda qaldı...

İran prezidentinin səfəri yüksək səviyyədə keçib, tərəflər qarşılıqlı dəstək və əməkdaşlıq mesajları veriblər. Azərbaycan prezidenti heyətlər arasında görüş zamanı iranlı həmkarının səfərinin böyük əhəmiyyət daşıdığını qeyd edib. Son 4 ildə Həsən Ruhani ilə 10 dəfə görüşdüyünü xatırladan ölkə başçısı bu illər ərzində İran-Azərbaycan əlaqələrinin ən yüksək zirvəyə çatdığını qeyd edib. **Sitat:** "Biz məsələləri dostluq, qardaşlıq şəraitində müzakirə edirik. Əldə edilmiş razılaşmalar icra olunur".

**Azərbaycan prezidenti deyib ki, İranla imzalanacaq sənədlər iki ölkə arasında əməkdaşlıq üçün yeni imkanlar açacaq. Prezident deyib ki, imzalanan sənədlər Xəzər dənizində birgə işi, Astara-Rəşt dəmir yolunun tikintisini nəzərdə tutur:** "Çünki bu səfər zamanı iki tarixi sənəd imzalandı - Xəzər dənizindəki bloklarla bağlı sənəd və Astara-Rəşt dəmir yolunun tikintisi. Eyni zamanda biz dünən cənab prezidentlə bu günə qədər həll olunmayan məsələlər ətrafında da fikir mübadiləsi apardıq. Bizim bütün görüşlərimiz çox səmərəli və məhsuldardır. Hansı məsələlər hələ ki, həll olunmayıb o məsələləri biz daim diqqətdə saxlayırıq. Həll olunmayan məsələlərin siyahısına baxdıqda indi bir çox məsələlər o siyahıdan çıxarılıb. Çünki onlar öz həllini tapıb".

İran prezidenti də Azərbaycan prezidentinin jestlərini cavabsız qoymayıb. İlham Əliyevlə görüşü zamanı Ruhani deyib ki, "biz Azərbaycanın təhlükəsizliyini və suverenliyini öz təhlükəsizliyimiz və suverenliyimiz hesab edirik. İki dövlət, iki millət və iki xalqın iradəsi ilə biz bu əlaqələri daha da inkişaf etdirəcəyik".

Həsən Ruhani ölkələrimiz arasındakı əlaqələrin bütün region və dünya üçün faydalı olduğunu deyərək bu səfərin tarixi qərarların qəbul edilməsi ilə nəticələndiyini, bütün bunların xalqlarımızın rifahına xidmət edəcəyini vurğulayıb, Xəzərdə müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumunun əhəmiyyətindən danışıb, Xəzər dənizinin əməkdaşlıq, təhlükəsizlik və dostluq dənizi olduğunu bildirib.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq etdiyini və bir-birinin yanında olduğunu deyən Həsən Ruhani Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayaraq bu layihə ilə bağlı görülən işlərin səmərə verəcəyinə əminliyini ifadə edib.

Ölkələrimiz arasında istifadə olunmayan potensialın Azərbaycan və İran prezidentlərinin şəxsi təşəbbüsləri və xidmətləri sayəsində artıq aktivləşdirildiyini deyən Ruhani müştərək iqtisadi əlaqələrin xalqlarımızın rifah halının yaxşılaşdırılmasına yönəldilməsinin vacibliyindən danışıb. Səhiyyə, əczaçılıq, bank sektoru, kənd təsərrüfatı, nəqliyyat, elektrik enerjisi, ticarət sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu deyib.

İran lideri ölkələrimizin turizm potensialından istifadə edilməsinin əhəmiyyətini vurğulayıb, xalqlarımız arasında gediş-gəlişin intensivləşdirilməsi, mədəniyyət sahəsində əlaqələrin gücləndirilməsinin vacibliyini bildirib.

Qeyd edək ki, İran-Azərbaycan əlaqələri 5 ildə çox sürətli bir inkişaf yolu keçib. Mahmud Əhmədinejad hakimiyyətinin son illərində əlaqələrdəki qeydə alınan soyuqluq Həsən Ruhaninin seçilməsi ilə aradan qaldırılıb. Xarici siyasətdə, qonşu ölkələrlə əlaqələrdə daha çox qarşılıqlı əməkdaşlıq və diplomatik dilə üstünlük verən Həsən Ruhaninin prezident seçilməsindən sonra Bakı və Tehran arasında qarşılıqlı səfərlər intensivləşib və bir sıra regional layihələr razılaşdırılıb. Onlardan biri də "Şimal-Cənub" Nəqliyyat Dəhlizi layihəsinin icrasıdır. Artıq fevral ayında Azərbaycandan taxta yüklü vaqonlar İran Astarasına keçib. Hazırda Tehran-Astara dəmir yolu xətti üzərində sürətlə iş gedir və yolun Astara hissəsinin tikintisinə Azərbaycan tərəfi kredit ayırıb. Bu layihənin işə düşməsi Rusiyadan İrana və əks istiqamətdə böyük həcmli yükdaşıma imkanları deməkdir. Söhbət Fars körfəzindən yüklərin dəmir yolu vasitəsilə Moskvaya qədər daşınmasını təmin edəcək böyük layihədən gedir.

Bundan başqa, Xəzərin statusu ilə bağlı iki ölkə arasında bir zamanlar sərhəd münaqişəsinə qədər dərinləşən problemin indi həll mərhələsinə qədəm qoyması iki ölkə əlaqələrinin hansı səviyyədə olduğunu göstərir. Dünyada həm də "diplomatiya şeyxi" adı ilə tanınan Həsən Ruhaninin "Biz Azərbaycanın təhlükəsizliyini və suverenliyini öz təhlükəsizliyimiz və suverenliyimiz hesab edirik" sözləri təbii ki, həm də Qarabağ münaqişəsi ilə bağlı Tehranın verdiyi mesajdır. İran rəhbərliyi münaqişəsinin həllində Bakıya dəstək vəd edir.

Əlbəttə, hazırda ABŞ-İran münasibətlərinin sürətlə pisləşməsi, xüsusən də son günlərdə Trampın və yeni kadrlarının İrana qarşı düşmənçilik mesajları fonunda bu səfər həm də Qərbdə diqqətlə izlənilir. Görünən odur ki, rəsmi Bakı Tehran-Vaşinqton xəttində artan gərginliyi özü üçün fürsətə çevirməyi düşünür. Yeri gəlmişkən, Azərbaycanın həyata keçirdiyi və Qərbdən ciddi dəstək aldığı BTC kimi enerji layihələrinin baş tutmasında məhz ABŞ-İran münasibətlərindəki soyuqluğun mühüm təsiri olub. Bu mənada Bakı ehtiyatlı və tədbirli davranmaqla İranla ABŞ arasındakı münaqişəni fürsətə çevirməyi düşünür. Bu səbəbdən Bakı indi xeyli rahatdır.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Ohanesyan Bakını görə bilmədi- Ermənistan vətəndaşı olmayanlarla necə davranmalı...

## Akif Nağı: ""İşğal olunmuş ərazilər haqqında" və ya başqa ad altında ayrıca qanun qəbul olunmalıdır ki..."

**"Estoniya vətəndaşı, erməni əsilli Karina Ohanesyan martın 23-də Bakı aeroportunda saxlanılıb və geriyə deportasiya edilib". "Turan"ın məlumatına görə, bu barədə martın 28-də Ermənistan KİV-i Karina Ohanesyanın instaqram səhifəsinə istinadən məlumat yayıb. K.Ohanesyanın yazdığına görə, aeroportda onu 12 saat saxlayıblar, bundan sonra geri göndəriblər.**



Qeyd olunur ki, K.Ohanesyan Tallin Şəhər Şurası sədrinin müşaviri və Estoniya Mərkəzçi Partiyasının gənclər qanadının sədridir. O, pedaqoqların beynəlxalq elmi-praktiki konfransında iştirak etmək üçün Estoniya nümayəndə heyətinin tərkibində Bakıya gəlmiş. Yazıda deyilir ki, Ohanesyan öncədən elektron viza alıb və Estoniyadan tədbir iştirakçısı kimi qeydiyyatdan keçib.

Nə Estoniyanın Bakıdakı səfirliyinin nümayəndələri, nə də Estoniyadakı Azərbaycan diasporunun təmsilçisi problemi həll edə bilməyiblər.

Azərbaycan XİN mətbuat xidmətindən "Turan"ın sorğusuna cavab olaraq bildiriblər ki, Estoniya vətəndaşının saxlanması və ölkədən çıxarılması ilə bağlı onlarda məlumat yoxdur.

Xatırladaq ki, artıq bir neçə ildir ki, bəlli səbəblərə görə erməni əsilli şəxslərin Azərbaycana səfəri məhdudlaşdırılır.

Bəs Ermənistanın yox, digər ölkələrin erməni millətindən olan vətəndaşları ilə bağlı yaranmış bu cür vəziyyətlər necə tənzimlənməlidir? Və ya necə tənzimlənir?

**Humanitar Tədqiqatlar Cəmiyyəti İctimai Birliyinin sədri Əvəz Həsənov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda konkret olaraq erməni millətindən olan digər ölkə vətəndaşlarının ölkəyə buraxılışına qadağa qoyacaq qanunvericilik aktı və yaxud daxili qaydaları olduğunu demək çətindir. Yazılmayan belə məhdudiyyət Ermənistan vətəndaşlarına qarşı mövcuddur ki, erməni pasportu ilə ölkəyə daxil olunması üçün xüsusi razılığa ehtiyac var:** "Təbii ki, erməni soyadı adı ilə Bakıya istənilən əcnəbinin gəlişi, hər hansı bir tədbirdə çıxış etməsi və yaxud şəhərdə sərbəst dolaşması Azərbaycan üçün risklə-ri artırır. O üzdən də çalışırlar ki, Bakıya daxil olan hər bir erməniəsilli vətəndaşa xüsusi razılıq qaydalarına uyğun olaraq icazə verilsin. Ona görə də bundan sonra da kimsə yenidən Bakıya icazə almadan və yaxud müvafiq qaydada cangüdənlə təmin edilmədən gəlməyə cəhd edəcəksə, onun deportasiyası qaçılmazdır".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Yeni Müsavat"a bildirdi ki, bu məsələ ilə bağlı ayrıca bir qanun yoxdur. Belə hallarla üzləşdikdə ümumi qanunvericiliyə uyğun hərəkət etməyə çalışırlar:** "Ona görə də "İşğal olunmuş ərazilər haqqında" və ya başqa ad altında ayrıca qanun qəbul olunmalıdır ki, analoji situasiyalarda müvafiq orqanların konkret nə cür davranmalı olduqları orada əksini tapsın. Son hadisəni erməni mediasında da izlədim. Onlar bunu Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə etməyə, həmin erməninin vətəndaşı olduğu ölkəni, ümumiyyətlə, beynəlxalq ictimai rəyi bizə qarşı qaldırmağa çalışırlar. Amma hesab edirəm ki, biz Ermənistanla müharibə vəziyyətində olduğumuz, həmçinin bütün dünya ermənilərinin Azərbaycana qarşı erməni işğalına açıq dəstək verdiklərinə və erməni diasporunun Azərbaycana qarşı müharibənin bir hissəsi olduğuna görə istənilən erməninin vətəndaşlığından asılı olmayaraq Azərbaycana gəlişinə imkan verilməməlidir. İstənilən erməni Azərbaycanın təhlükəsizliyinə təhdid yarada bilər. Tarixə nəzər salsaq görərik ki, müharibə vəziyyətində olan bütün ölkələr bu prinsipi əsas götürüblər. Azərbaycanın müvafiq rəsmi orqanları erməni Karina Ohanesyanı hava limanından çox haqlı olaraq geri qaytarıblar. Nə qədər ki, torpaqlarımız erməni işğalındadır, biz belə davranmalıyıq".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 67 (6956) 30 mart 2018



# Vuran əlimiz, güvən yerimiz...

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Gözlənilən idi. Türkiyənin Suriyada terrorçulara qarşı əməliyyatlarda uğurları artdıqca antitürk çevrələri yasa batır. Kimin kim olduğu indi apaydın ortadadır. Maskalar yırtılıb, "buynuzlar"ı daha gizləmək olmur.**

"Avropa ölkələri YPG-yə kömək etməlidir, yoxsa Türkiyə bölgədə qüdrətini artıracaq". Fransanın nüfuzlu nəşri "Le Fiqaro"nun iki gün öncəki məqaləsindəndir bu sitat. "Şərqdəki dostlarına (oxu: kürd terrorçularına - Z.S.) xəyanət edən Qərb" başlıqlı həmin yazıda Türkiyənin qarşısının alınmasının vacibliyi vurğulanır və "Avropa ölkələri artıq nəsə etməlidir, çünki Türkiyə getdikcə güclənir" çağırışı yer alır.

Beləcə, "qoca qitə" yüz illərdir Türkiyə kabusundan qurtula bilmir. 60 ilə yaxındır qardaş ölkənin Avropa Birliyinin qapısı ağzında gözlədilməsinin tək səbəbi də elə bu - qüdrətli, "ipə-sapa yatmayan" Türkiyə. Halbuki, iqtisadi, demokratik göstəriciləri ondan qat-qat aşağı olan Şərqi Avropa ölkələri (Bolqarıstan, Macarıstan, Rumıniya və s.) çoxdan Birliyin üzvüdür.

Türkiyəni isə bu müddətdə ha çalışdılar "əl dövləti"nə çevirib quruma qəbul eləsinlər, alınmadı. Bu, mümkün də deyildi. Çünki aslandan ev heyvanı çıxmaz. Əksinə, Türkiyə 60 il öncəkindən də qüdrətlidir. Demək, Avropa Birliyinə üzvlük Ankara üçün daha əlçatmaz olacaq.

Lakin səni arzulamayan yerə getməyə, üzvlük üçün qapıda gözləməyə, xahiş-minnətə, alçalmağa dəyərmi? Ümumiyyətlə, Türkiyəyə onun üzvlüyündən xoşhal olmayan bir qurum lazımdırmı, əgər onun özü faktiki, Avropa Birliyi kimi indi bir güc mərkəzidirsə?

O gün nüfuzlu əcnəbi geosiyasət uzmanlarından biri müsahibəsində demişdi ki, 2030-cu il üçün dünyada 5-6 supergüc mövcud olacaq ki, onlardan biri də Türkiyə olacaq. Proses başlayıb. Üstəlik, bu müddətdə qardaş ölkənin nüvə dövlətinə çevrilmə ehtimalı var. Bu il inşasına başlanacaq Akkuyu AES-i məhz qarşıdakı 10 il üçün nəzərdə tutulub. Bir neçə gün qabaq isə Türkiyə özünün uzaq mənzilli ballistik raketlərini uğurla sınaqdan çıxardı...

Türkiyənin bölgədə regional gücdən qlobal supergücə çevrilməsi bizim üçün əlbəttə ki, fəxarətdir, erməniyə göz dağıdır. Türkiyənin gücü Azərbaycanın gücüdür şəksiz ki. Türkiyə bizim bənzərsiz qürur yerimiz, vuran əlimizdir. Qardaş ölkənin uğurları sözsüz ki, həm də Azərbaycanın aktivinə yazılır, bizim əlimizi gücləndirir, Qarabağı bizə yaxınlaşdırır, özünə inamımızı, işğalçı üzərində qələbəyə inamımızı artırır. Eyni dərəcədə işğalçı erməniləri ruhdan salır, ümidsiz edir. Həm də o səbəbdən ki, güclü və qüdrətli Türkiyənin Ermənistanın ağası Rusiyaya təsir imkanları artır.

Demək, "Türkiyəni durdurun" söyləyənlər Azərbaycanın dostu, simsarı, tərəfdaşı ola bilməz! "Qoymayın, Türkiyə qüdrətlənir" deyə aləmə car çəkənlər, təlaş keçirənlər Azərbaycanın da qüdrətlənməsini istəməyənlərdir! Türkiyəni sevməyən Azərbaycanı sevməz və Qarabağ məsələsində ədalətli, qərəzsiz vasitəçi ola bilməz! Necə ki, işğalçı Ermənistanı "kiçik bacı" sayan Fransa ola bilmir. Əks məntiq də doğru: işğalçı Ermənistanın dostu Azərbaycanın da dostu ola bilməz.

Söz düşmüşkən, İran prezidenti Həsən Ruhani dünən Bakıda bəyan elədi ki, "Azərbaycanın təhlükəsizliyi və suverenliyi bizim təhlükəsizliyimiz və suverenliyimizdir". Xub. Ancaq bu sözlərin səmimiliyinə axıra kimi inana bilmirsən - İran-Ermənistan dostluğu qoymur.

Amma eyni sözləri Türkiyə rəsmiləri deyəndə, "Qarabağ dərdi Türkiyənin də dərdidir" söyləyəndə zərrəcə şəkk eləmirik. Ona görə yox ki, bir millət-iki dövlətik. O səbəbə ki, Türkiyə öz sözünün ağasıdır - Ermənistanla sərhədini, qapılarını 30 ildir bağlı saxlayır, ta ki, Qarabağ ixtilafı ədalətli həllini tapanacan.

Keşkə, ondansa Ruhani Bakıda "Ermənistan işğalçıdır" söyləydi. Söyləyə biləydi. Bu, bizim üçün kifayət idi...

Sözümüzün canı odur ki, siyasət də dini inanc kimidir: əsas əməldir. "Dostunu göstər, deyim kimsən". Bu məsəl qonşuluq münasibətlərindəki səmimiyyəti ölçmək üçün də qüsursuz lakmus sayıla bilər...

# Eldar Mahmudov son generalları da qurban verdi - 44 illik həbs və...

## Bu gün "MTN işi" üzrə məhkəmədə sabiq nazirin "kassiri" və "qara qutusu" hesab olunan şəxslərə hökm oxunacaq; ev dustağı olan general-mayor Natəvan Mürvətovanın taleyi necə olacaq?

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-Texniki İdarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmə iclası davam edir.**

Cinayət işi Bakı Hərbi Məhkəməsinin sədri hakim Həbib Həsənovun sədrlik etdiyi kollegiyada Sabunçu Rayon Məhkəməsinin inzibati binasında araşdırılır.

Musavat.com xəbər verir ki, bu gün-martın 30-da keçiriləcək növbəti məhkəmə iclasında hökm oxunacaq. Qeyd edək ki, dövlət ittihamçısı çıxış edərək general Sübahir Qurbanovun 16 il, Teymur Quliyevin 16 il, Natəvan Mirvətovanın 12 il, Füzuli Əliyevin 15 il, Natiq Əliyevin 14 il, Zaur Məmmədovun 13 il, Elşad Əzizovun 8 il, Fərhad Atayevin 7 il , Anar Şirəliyevin 7 il, Eşqin Əliyevin 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Prokuror təqsirləndirilən şəxslərin hər birinin hərbi rütbələrindən azad olunmasını istəyib. Bunun üçün generallarla bağlı prezidentə, digər rütbəli şəxslərlə bağlı müvafiq qurumlara təqdimat verilməsini istəyib. Dövlət Təhlükəsizlik Xidmətinin 1 milyon manatlıq mülki iddiasının təmin olunmasını istəyib.

Qeyd edək ki, adıçəkilən şəxslər 2015-ci ildə həbs olunublar, N.Mürvətova isə ev dustağıdır.

Bu iş üzrə məhkəmə ötən ilin yanvar ayının 19-da başlayıb.

İttiham olunan generalların sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun dövlət qurumlarını öz təsiri altına salmasında, var-dövlət toplamasında müstəsna rolları olub. Qeyd edək ki, Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mirvətova və qeyrilərinə məxsus ümumilikdə 21 milyon 528 min manat dəyərində əmlak və pul vəsaitlərinin, o cümlədən 20 milyon 971 min manat dəyərində daşınmaz əmlak, 272 min manat dəyərində nəqliyyat vasitələri, 42 min manat dəyərində zərgərlik və digər qiymətli məmulatlar, 88 min manat, 88 min ABŞ dolları və 5 min avro nağd pul vəsaitləri üzərinə həbslər qoyulub.

"Yeni Müsavat" xatırladır ki, S.Qurbanov ona elan olunmuş ittihamlar üzrə istintaqda özünü təqsirli bilməyib.



Sübahir Qurbanov



Teymur Quliyev



Natəvan Mirvətova

O, bir neçə sahibkardan hədə-qorxu yolu ilə külli miqdarda pul almasına dair ittihamları qəbul etməyib, həmin sahibkarları tanımadığını deyib. Amma MTN kuluarlarında S.Qurbanov Eldar Mahmudovun "ikinci kassiri" kimi də tanınıb.

T.Quliyev də "MTN işi"ndə ən mübhəm fiqurlardan biridir. MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsində çalışmış Teymur Quliyev isə Eldar Mahmudovun "qara qutusu" hesab olunur. Məhz onun rəhbərlik etdiyi Monitorinq Mərkəzi bütün qanunsuz dinləmələri həyata keçirib. Bu dinləmələr isə təkcə hədəfdə olan sahibkarları əhatə etməyib. Məlumata görə, hakimiyyət təmsilçiləri də Teymur Quliyevin rəhbərlik etdiyi otaqdan dinlənilib, mümkündür ki, səs yazıları kimi qeydə də alınıb.

Eldar Mahmudovun işdən çıxarılmasından dərhal sonra qapıları möhürlənən Monitorinq Mərkəzi illərlə bu kimi dinləmələr həyata keçirib, mümkündür ki, danışıqlar xüsusi fayl şəklində toplanaraq kompromat kimi saxlanılıb və ya xaricə çıxarılıb.

1970-ci ildə Bakıda anadan olan Teymur Quliyev o vaxt Xalq Təsərrüfatı İnstitutu adlanan ali məktəbi bitirib. Teymur Quliyevin atası da polis sistemində işləyib, bir sıra rayonların rəisi olub. Əmisi isə sovetlər vaxtı daxil işlər nazirinin müavini vəzifəsində çalışıb.

T.Quliyev DİN-in İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində Eldar Mahmudovun bilavasitə rəhbərliyi altında işləyib və burada onların "iş birliyinin" əsası qoyulub.

Eldar Mahmudov milli təhlükəsizlik naziri təyin olunandan sonra T.Quliyevi də MTN-ə gətirib. Əvvəl MTN-də təchizat şöbəsinin rəisi postunda işləyən T.Quliyev hələ də bilinməyən "xidmətlərinə görə" tezliklə daha yüksək posta - MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsinə təyinat alıb. 2012-ci ilin mart ayında ölkə başçısının sərəncamı ilə general-mayor rütbəsi alan T.Quliyev hüquq-mühafizə sistemində ən gənc generallardan biridir.

**General-mayor Natəvan Mürvətova isə məhkəmədəki ifadələrində qısa danışıb: "Mən özümü təqsirli bilmirəm".**

**❑ ORXAN, "Yeni Müsavat"**



# Goranboyda qardaşlar namus üstə bacılarını öldürdülər

**Goranboy rayon sakini bacısını qətlə yetirib. "Report"un Qərb bürosu xəbər verir ki, hadisə İrəvanlı kəndi ərazisində baş verib. Belə ki, yerli sakinlər kəndin ərazisində basdırılmış qadın meyiti aşkar ediblər və dərhal polisə məlumat verilib.**

Məlum olub ki, qətlə yetirilən rayonun İrəvanlı kənd sakini, Rəşxəndə Çingiz qızı Hüseynovadır. Qətlə yetirilən qadının iki qardaşı və iki bacısının olduğu deyilir. Qadın qətlə yetirildikdən sonra yaşadığı evin zirzəmisində basdırılıb. R.Hüseynovanın iki qardaşı - 1985-ci il təvəllüdlü Aydın Hüseynov və 1988-ci il təvəllüdlü Aqil Hüseynov şübhəli şəxs qismində saxlanılıb. Qətlin namus üstündə törədildiyi ehtimal edilir.

YENİ MÜSAVAT
N 67 (6956) 30 mart 2018

**Rusiyanın Kemerovo şəhərində "Zimnaya vişnya" ("Qış albalısı") ticarət mərkəzində baş verən dəhşətli yanğın bir neçə gündür ki, dünya mediasının gündəmindədir. Ticarət mərkəzində baş verən dəhşətli yanğın nəticəsində 64 nəfər həlak oldu ki, onlardan da 41-i azyaşlıdır. Hadisədə bu qədər insanın həlak olması müzakirə edilən zaman müxtəlif fikirlər səsləndirilib. Səslənən fikirlər arasında qeyd olunur ki, hadisənin faciə ilə nəticələnməsi yanğın çıxışlarının bağlı olması ilə əlaqədardır.**



# Bakıda ticarət və əyləncə mərkəzləri necə qorunur-araşdırma

## AVM-lərdə mühafizə zəif olsa da, yanğının qarşısını almaq üçün avadanlıqlar quraşdırılıb

Bakının mərkəzi küçələrində də son illər iri alış-veriş mərkəzləri (AVM) tikilib. Bu AVM-lərin də hər birinin üst mərtəbəsində kafelər, uşaqlar üçün əyləncə mərkəzləri yerləşir. Demək olar ki, AVM-lərdə ən çox müştəri də elə bu mərtəbələrdə olur.

Nəzərə alsaq ki, növbəti ay Azərbaycanda həm prezident seçkisi, həm də "Formula-1" yarışı keçiriləcək, o zaman insanların toplu halda olduğu bu kimi yerlərin təhlükəsizlik məsələsi daha da diqqətdə saxlanılmalıdır.

Bəs Bakıdakı AVM-lər necə qorunur? Hər hansı bir hadisə baş verərsə insanların ticarət mərkəzindən təhlükəsiz formada təxliyəsi üçün şərait yaradılıbmı?

"Yeni Müsavat" olaraq suallara cavab tapmaq üçün şəhərin mərkəzində yerləşən 2 AVM-də olduq.

Öncə insanların daha çox üz tutduğu "28 Mall" ticarət mərkəzində olub, buradakı təhlükəsizlik tədbirləri ilə maraqlandıq. Müşahidə etdik ki, AVM-in girişində xüsusi cihaz quraşdırılıb və hər kəs bu cihazın altından keçir. Kimin cibində metal, təhlükəli əşya varsa, aparat səs çıxarır. Lakin mühafizəçilərin içəri daxil olan hər hansı bir şəxsin çantasını, cibini yoxladığının şahidi olmadıq. Ümumilikdə ticarət mərkəzinin daim açıq olan iki giriş-çıxış qapısı var. Öyrəndik ki, "28 Mall" özəl mühafizə şirkəti tərəfindən qorunur. Mühafizə ilə bağlı bütün məsələlərlə əlaqədar bu şirkətin nümayəndələri məsuliyyət daşıyırlar.

**Yanğınla bağlı AVM-də Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən işıqlar, lazımi avadanlıqlar quraşdırılıb. Hər mərtəbədə yanğınsöndürmə üçün xüsusi qurğu (qol), hadisə baş verən zaman haradan çıxmağı göstərən nişanlar var. Məsələ ilə bağlı AVM-in mühafizəçilərindən biri ilə söhbət etdik. O bildirdi ki, Rusiyada baş verən hadisənin burada təkrarlanması mümkün deyil:** "Ticarət mərkəzi tikilən zaman hər bir şey nəzərə alınıb. Burada sonuncu mərtəbədə FHN-in quraşdırdığı xüsusi işıqlar, yanğın baş verən zaman səmişinləri çıxışa səsləyən avtomatik qurğular və avtomatik su axınını təmin edən cihazlar quraşdırılıb. Bundan əlavə, AVM bizim tərəfimizdən də mühafizə olunur. Hər birimizin əlimizdə ratsiyalar var ki, bunun vasitəsilə bir-birimizlə əlaqə saxlayıb, vəziyyətlə maraqlanırıq. Bu ticarət mərkəzində 11 ədəd yanğın çıxışı var. Çıxışlar həm sanitar qovşaq bölümündə, həm də binanın künclərindədir. Bundan əlavə, ticarət mərkəzinin ortasında pilləkən də var ki, bunun vasitəsilə də aşağı düşmək mümkündür. Hesab edirik ki, Rusiyada baş verən hadisə təxribatdır. Çünki bu cür ticarət mərkəzlərində yanğınla bağlı bütün detallar nəzərə alınıb. Eyni zamanda bu cür hadisə baş verən zaman nə etməli olduğumuzla bağlı təlimlər də keçmişik".

















Onu da qeyd edək ki, adətən AVM-lərdə yuxarı qalxmaq üçün həm liftdən, həm də eskalatorlardan istifadə etmək mümkündür. İnsanlar liftdə vaxt itirməmək üçün daha çox ikinci variantı, yəni eskalator vasitəsilə yuxarı mərtəbəyə qalxmağa üstünlük verirlər. Marketinq siyasəti baxımından isə bu AVM-lərdə eskalatorlar bir-birindən çox aralıdadır. Buna görə də yuxarı qalxmaq istəyən şəxs bir mərtəbə qalxdıqdan sonra AVM-in digər başına getməli, eskalatorla növbəti mərtəbəyə qalxmalıdır. Bu isə təbii ki, yanğın və ya hər hansı bir hadisə baş verən zaman çətinlik yarada bilər.

"28 Mall" ticarət mərkəzini dolaşdığımız zaman mağazalarda hər hansı bir yanğın söndürmək üçün istifadə olunan balona rast gəlmədik...

Daha sonra isə yol aldıq "Park Bulvar" alış-veriş mərkəzinə. Əvvəlcə onu qeyd edək ki, ticarət mərkəzi bulvar ərazisində yerləşdiyi üçün bura da gələnlərin sayı kifayət qədər çoxdur. AVM-in hər zaman açıq olan 3 giriş qapısının olduğunun şahidi olduq (söhbət yanğın çıxışlarından deyil, ümumi qapılardan gedir). Lakin müşahidə etdik ki, bu qapılardan ikisi fırlanan qapılardır. Yəni içəri girib-çıxmaqda maneə var. Burada da yuxarı qalxmaq üçün eskalator və liftlərdən istifadə etmək olar. Eyni zamanda "Park Bulvar"da da eskalatorlarla qalxmaq-düşmək üçün ticarət mərkəzinin bu başından, o başına getməlisən. AVM-yə girişdə hər hansı bir cihaz quraşdırılmayıb. Buranı da özəl mühafizə şirkəti qoruyur. Lakin əlində hansısa yoxlama cihazı görmədik. Sadəcə olaraq, mühafizəçi kənarda durub, gəlib-gedənlərə baxır. Yanğından mühafizəyə gəlincə isə ticarət mərkəzində çoxsaylı yanğınsöndürən balonların olduğunu müşahidə etdik. AVM-in içərisində yanğınsöndürən qollar olduğu kimi, qarşısında da bu cür "yanğın şiti"nə rast gəldik.

**Öyrəndik ki, burada hər mərtəbədə 5 yanğın çıxışı var. Bu çıxışlar da xüsusi işarələr vasitəsilə göstərilib. Ümumiyyətlə, hər iki AVM-də binanın xəritəsi var ki, insanlar hadisə zamanı bundan da istifadə edib, çölə çıxa bilərlər. AVM-in ofisindən "Yeni Müsavat"a bildirildi ki, "Park Bulvar" alış-veriş mərkəzində dövlətin qoyduğu bütün standartlar tam olaraq yerinə yetirilir:** "Təhlükəsizlik tədbirləri ilə əlaqədar olaraq mütəmadi şəkildə təlimlər keçiririk. Eyni zamanda avtomobillərin park yerləri də daxil olmaqla, bütün mərtəbələrdə yanğınsöndürmə balonları qoyulub. Bizdə təxliyə planları açıq şəkildə hər mərtəbədə yerləşdirilib. İnsanlar bu planlarla tanış ola bilərlər. Eyni zamanda hər mərtəbədə yanğını lokallaşdıran, yerindəcə təsirini azaldan aparatlar quraşdırılıb. Yanğın olarsa, həmin aparatlar avtomatik formada işə düşür və yanğının ətrafa yayılmasının qarşısı alınır. Həmçinin kino zallarımızda da yanğın çıxışları mövcuddur ki, bu çıxışlar da hər zaman açıqdır".

**Ümumilikdə qeyd edə bilərik ki, yollandığımız AVM-lərdə mühafizə zəif olsa da, yanğınla bağlı lazımi avadanlıqlar quraşdırılıb.**

**❑ Əli RAİS,**
**Fotolar müəllifindir**

## "Bakıda bomba partlayacaq" deyən şəxs psixi xəstə çıxdı

**Bakı Ağır Cinayətlər Məhkəməsində Yeni il bayramında paytaxtda bomba partlayışı olacağı barədə yalan məlumat verməkdə təqsirləndirilən 25 yaşlı Elmar Qasımova hökm oxunub.**

"Qafqazinfo"nun verdiyi xəbərə görə, hakim Mahmud Ağalarovun icraatında olan prosesdə E.Qasımovun psixi xəstəlikdən əziyyət çəkdiyi qənaətinə gəlinib və o, müalicə olunması üçün 1 saylı Respublika Psixiatriya Xəstəxanasına göndərilib. İttihama görə, yanvarın 2-də saat 21.40 radələrində naməlum şəxs Səbayel rayonu ərazisindəki mehmanxanalardan birinə bomba qoyulması barədə yalan məlumat verib.

Bakı Şəhər Baş Polis İdarəsi və Səbayel Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə bomba qoyulması barədə yalan məlumat verməkdə şübhəli bilinən Bakı şəhər sakini, 24 yaşlı Elmar Qasımov müəyyən edilərək saxlanılıb.

**Ləğv prosesində olan “Bank Standard” QSC-nin əmanətçiləri Azərbaycan Mərkəzi Bankını (AMB), onun sədri Elman Rüstəmovu, Maliyyə Bazarlarına Nəzarət Palatasını (MBNP), onun Direktorlar Şurasının sədri Rüfət Aslanlını, eləcə də bankın auditini həyata keçirmiş “KPMG” audit şirkətini məhkəməyə verib.**

# Elman Rüstəmovun başı dərddə

## Bank əmanətçiləri baş bankirə və digərlərinə qarşı 47, 5 milyon dollarlıq iddia qaldırdılar

Bu barədə bankın Kreditorlar Komitəsinin sədri, hüquqşünas Əkrəm Həsənov məlumat verib.

Onun sözlərinə görə, 82 əmanətçi “Bank Standard”ın müflisləşməsində təqsirli hesab etdiyi dövlət qurumlarına və şəxslərə qarşı 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində və Nəsimi Rayon Məhkəməsində 6 kollektiv iddia irəli sürüb.

“Təqsirkarlardan vurulan zərərin əvəzi - 47,5 mln. dollardan çox məbləğin ödənilməsi tələb olunur. Bu, təxminən 81 mln. manat təşkil edir. Xatırladıram ki, ümumiyyətlə, əmanətçilərin bu bankda 157 mln. manatı qalıb. Yaxın vaxtda digər əmanətçilər də bu iddialara qoşulacaq.

İddiada əsas sübut kimi Ali Məhkəmə tərəfindən təsdiq olunmuş Ləğv Planına istinad olunur. Belə ki, Ləğv Planında “Bank Standard”da uzun illər boyu baş vermiş kobud qanun pozuntuları ətraflı təsbit edilib. Yekunda da qeyd olunub ki, 1,2 mlrd. manat borcu olan bankın cəmi 196 mln. manatlıq əmlakı var. Bu isə o deməkdir ki, yəni zərər 1 mlrd. manatdan çoxdur. Buna görə də əmanətçilərə 1 qəpik də qaytarılmayacaq", - deyə vəkil qeyd edib.

**Məsələ ilə bağlı hüquqşünas Əkrəm Həsənov “Yeni Müsavat”a ətraflı açıqlama verib. O bildirib ki, proses Avropa Məhkəməsinə qədər davam edə bilər:** “Əgər Azərbaycan məhkəmələri bu iddiaları təmin etməsə, biz Avropa Məhkəməsinə müraciət edəcəyik. Çünki




Azərbaycan məhkəmələrinin bu iddiaları təmin etməməsi ehtimalı böyükdür. Ancaq faktlar göz qabağındadır. ”Bank Standart" əmanətçilərinin bu iddiasından sonra mənə digər bankların əmanətçiləri də zəng ediblər ki, onlar da məhkəməyə müraciət etmək istəyirlər. Özü də təkcə son illərdə bağlanan bankların yox, “Bank of Azərbaijan”ın, hətta “Royal bank”ın əmanətçiləri də müraciət ediblər ki, biz də birləşmək və məhkəmələrdə iddia qaldırmaq istəyirik. Biz artıq bu faktları sübut etməli olmayacağıq, çünki Ali Məhkəmənin təsdiq etdiyi Ləğv Planında var. Son nəticədə Ləğv Planında deyilir ki, bankın 1 milyard 200 milyon manat borcu var, cəmi əmlakı isə 196 milyon manatdır. Yəni bankın zərəri 1 milyard manatdan çoxdur".

**Hüquqşünas onu da vurğuladı ki, bu məsələdə əmanətçilərin mülkiyyət hüququ ilk növbədə konstitusiya ilə qorunur və cavabdeh tərəf dövlət qurumlarıdır:** “Azərbaycan Konstitusiyasının 68-ci maddəsinin 3-cü bəndində deyilir ki, hər kəsin dövlət orqanlarının və yaxud vəzifəli şəxslərin qanunazidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində ona vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüquq var.

“Banklar haqqında” Qanunun 92-ci maddəsində isə konkret olaraq deyilir ki, Mərkəzi Bank, MBNP və onların vəzifəli şəxsləri bank nəzarətini həyata keçirərkən qanunsuz hərəkət və ya hərəkətsizliyə yol veriblərsə, onlar vurulan zərərə görə məsuliyyət daşıyırlar. Bu qanuna görə bank nəzarətinin əsas mahiyyəti odur ki, Mərkəzi Bank illər boyu “Bank Standart”a nəzarət etməli idi ki, əmanətçilərin də hüquqları qorunsun. Ancaq Mərkəzi Bank bu nəzarəti etməyib. Açıq şəkildə görünür ki, AMB illər boyu bu banka kreditlər verib və bu bank vasitəsilə konkret sahibkarları kreditləşdirib, bu yolla girovlar əldə edib.

Bir faktı da deyim ki, “Banklar haqqında” Qanuna görə, ildə bir dəfə bank kənar auditor tərəfindən yoxlanmalıdır və həmin yoxlamanın nəticəsi də Mərkəzi Banka verilməlidir. 2014-2015-ci illər üzrə bunu etməyiblər. Bankın auditoru olan “KPMG” 3 dəfə Mərkəzi Banka rəsmi müraciət edib ki, yoxlama aparmağa imkan vermirlər. Bizim əlimizdə Azərbaycan Auditorlar Palatasının bu barədə rəsmi məktubu var. Bütün bunlar onu göstərir ki, ən azı AMB və sədri Elman Rüstəmov, eləcə də baş direktoru Rəşad Orucov “Bank Standart”a nəzarəti həyata keçirərkən hərəkətsizliyə yol veriblər. Vaxtında müdaxilə etməyiblər və vəziyyət gəlib bu həddə çatıb. Mövcud qanunvericilik əmanətçilərə tam əsas verir ki, pullarını bu şəxslərdən istəsinlər. Eyni məsələ MBNP-nin sədri Rüfət Aslanlıya, İbrahim Alışova, Xalid Əhədova da aiddir ki, onlar 2016-cı ilin mayından sentyabrına qədər guya bankda sağlamlaşdırma aparıblar. Bunun özü də qanunsuz idi. Çünki Nazirlər Kabinetinin müvafiq qərarı yox idi. Ləğv planında da yazılıb həmin sağlamlaşdırma dövründə bank hər ay 30 milyon manat itkiyə məruz qalıb. Sağlamlaşdırma dövrü 5 ay olub və bu dövr ərzində onlar 150 milyon manat itirdilər. Daha sonra bank nəzarəti Mərkəzi Bankdan alınıb MBNP-yə verildi. Bundan başqa, Mərkəzi Bankın Bank Standarta verdiyi 115 milyon manat kredit də var idi ki, o pul da itib getdi. Heç kim də indiyə kimi demir ki, o pulu nə ediblər".

**Əkrəm Həsənovun sözlərinə görə, bu şəxslərdən başqa haqqında iddia qaldırılanlar arasında audit şirkəti və bankın keçmiş rəhbərləri də var:** “Audit şirkəti uzun illər yoxlama aparıblar və məlumat veriblər ki, hər şey qaydasındadır, buna görə cavab verməlidirlər. Digər şəxslər bankın keçmiş İdarə Heyəti sədrləri Səlim Krimanla Abbas Nəsibovdur. Onlar da bankın müflisləşməsində günahkardırlar. Bəlkə də başqaları da var. Hətta bəzi əmanətçilər tələb edirlər ki, Heydər Babayevi də məhkəməyə verək. Mən isə bildirdim ki, kimin əlində fakt varsa, təqdim etsin və onu da məhkəməyə verək. Heydər Babayevin adı heç bir sənəddə yoxdur. Deyimlər var ki, bu bank onun olub, ancaq əlimizdə fakt yoxdur. Bizim məhkəməyə təqdim etdiyimiz iddialar sırf əlimizdə olan faktlarla bağlıdır. Əmanətçilər bununla bağlı dövlət başçısına da müraciət ediblər.

Əgər 1 saylı İnzibati İqtisad Məhkəməsində və Nəsimi Rayon Məhkəməsində işə ədalətli şəkildə baxılsa, müsbət qərar verilməlidir, əmanətçilərə dəyən ziyan kompensasiya edilməlidir. Yerli məhkəmələr xeyrimizə qərar verməsə, mən əminəm ki Avropa Məhkəməsində iddialarımız təmin ediləcək. Əminəm ki, beynəlxalq maliyyə qurumları bu məhkəmələri diqqətlə izləyəcək".

**Əkrəm Həsənov diqqətə çatdırdı ki, əgər məsələnin araşdırılması zamanı cinayət əməlləri ortaya çıxsa, ilk növbədə AMB sədri və baş direktorunun həbsi qaçılmazdır:** “Bizim iddiamız sırf mülki iddiadır. Tələbimiz odur ki, əmanətçilərə vurulan zərər ödənilsin. Məhkəmə prosesində müəyyən olunsa ki, bu vəzifəli şəxslərin əməlində cinayət faktoru var, əlbəttə, onların həbsi gözlənilir. Mən bunu heç də istisna etmirəm, sadəcə, əlimizdə fakt yoxdur. Onu da deyim ki, bizim müraciətimiz əsasında Baş Prokurorluq artıq Səlim Krimanı axtarışa verib. Mən hesab edirəm ki, bankın müflisləşməsində əsas günahkarlar Elman Rüstəmovla Rəşad Orucovdur. Onlar uzun illər boyu bu qədər qanunsuzluğu görməyə bilməzdilər. Əgər görərək susublarsa, onların bu əməlləri araşdırılmalıdır. Əksinə, bu müddət ərzində hələ banka kredit də veriblər. Mən istisna etmirəm ki, bu məsələlər dərindən araşdırılsa son nəticədə elə Elman Rüstəmovla Rəşad Orucov həbs edilə bilərlər”.

**Qeyd edək ki, prezident seçkisindən sonra maliyyə məsələlərini kurasiya edən bir sıra şəxslərin vəzifədən alınacağı gözlənilir. Onların sırasında isə ən başda Milli Bank sədri gəlir...**

❑ Nərgiz LİFTİYEVA,
“Yeni Müsavat”

# Sağlam rəqabətin Türkiyə təcrübəsi

## Türkiyə Rəqabət Kurulunun ilk rəhbəri Nurəddin Kaldırımçı Bakıdadır

**“Hər bir ölkədə sağlam rəqabət mühitinin formalaşması üçün zəruri olan bütün komponentlərin birgə fəaliyyəti çox vacibdir”. “Yeni Müsavat” xəbər verir ki, bu fikri jurnalistlərlə söhbətində Türkiyə Rəqabət Kurulunu yaradanlardan biri və onun ilk rəhbəri olmuş Nurəddin Kaldırımçı söyləyib.**

Tanınmış mütəxəssisin sözlərinə görə, rəqabət mühitinin sağlam olması üçün bu sahəyə nəzarət edən dövlət qurumu, bütövlükdə hökumət, cəmiyyətin müxtəlif təbəqələri - biznes, vətəndaş cəmiyyəti və mətbuat birgə işləməlidir: “Rəqabət hüququ 15-20 ildən bəridir ki, beynəlxalq səviyyədə ən ciddi müzakirələrə səbəb olur. Hazırda Beynəlxalq Rəqabət Orqanları Şəbəkəsi fəaliyyət göstərir. Hər il bu şəbəkə daxilində rəqabət mühitinin müxtəlif aspektləri barədə geniş müzakirələr təşkil olunur”.

N.Kaldırımçı bildirib ki, Türkiyədə rəqabət mühitini tənzimləyən qanunverici baza 1994-cü ildə qəbul edilib. Bu bazanın yaradılması isə əsasən Avropanın tələbləri sayəsində baş tutub. Belə ki, həmin vaxtlar Türkiyə Avropa Birliyi ilə eyni gömrük məkanına daxil olmağa çalışırdı. Avropa Birliyi isə bunun üçün rəqabət qanunvericiliyinin yaradılmasını şərt olaraq irəli sürüb. 1997-ci ildə isə Türkiyədə Rəqabət Kurulu yaradılıb. Kurulun üzvləri müxtəlif dövlət və qeyri-dövlət təşkilatlarının nümayəndələrindən olmaqla 6 illiyə təyin olunurlar.



**N.Kaldırımçı deyir ki, rəqabət hüququ istehlakçı hüququnun tərkib hissəsidir. İstehlakçı hüququnu pozan fəaliyyətlər bir çox hallarda qeyri-sağlam rəqabət mühitində meydana gəlir:** “Məsələn, feysbukun başına gələnlərə diqqət yetirək. Burada söhbət istehlakçı hüquqlarının pozulmasından - yəni istifadəçilərin şəxsi məlumatlarının üçüncü tərəfə verilməsindən gedir. Bu əmələ görə feysbuk daha 100 milyard dollar dəyər itirib. Əgər iddialar təsdiqini tapsa, şirkət 2 trilyon dollarlıq təzminat davası ilə üz-üzə qala bilər. Bütün bunların baş verməsində həm də rəqabət rol oynayır. Hansı ki, onu heç bir sahibkar sevmir - hamı üçün rəqabətsiz mühitdə qazanmaq daha rahatdır. Lakin dünyada gedən proseslər, inkişaf səviyyəsi getdikcə sağlam rəqabət məsələsini aktuallaşdırır”.

**Türkiyə Rəqabət Kurulunun ən yüksək cərimə tətbiq etdiyi bank sektoru olub. Belə ki, 2010-2011-ci illərdə bank faizləri və kredit şərtləri ilə bağlı bir sıra banklar arasında gizli razılaşmanın olması ilə bağlı qurum tərəfindən geniş araşdırma aparılıb. Məlum olub ki, banklar arasında belə bir razılaşma olub. Buna görə Rəqabət Kurulu bankları 750-800 milyon dollar cərimə edib:** “Cərimələr şirkətlərin ümumi dövriyyəsindən hesablanır. Buna görə də 1-2 faizlik cəza böyük məbləğləri əhatə edir. Belə cəzalar xeyli təsirlidir. Qorxu məcbur edir ki, biznes sağlam rəqabət prinsiplərinə əməl etsin”.

**N.Kaldırımçı onu da qeyd edib ki, Türkiyədə ən yüksək cəzalar alqı-satqı prosedurları zamanı rəqabət prinsiplərinin pozulması faktları üzrə tətbiq olunur:** “Ümumiyyətlə, hazırda 3 istiqamətdə Rəqabət Kurulunun işi çox olur. Bunlar kartel sövdələşmələri, hökmran mövqedən sui-istifadə və satınalmalardır. Məsələn, ”Doğan" qrup media orqanlarını “Dəmirörən” holdinq alır. Bu alqı-satqı müqaviləsini hazırda Rəqabət Kurulu yoxlayır. Dünyada belədir ki, alqı-satqı nəticəsində şirkətlərdən biri hökmran mövqeyə keçirsə, bu müqaviləni mütləq rəqabət qurumu yoxlayır".

❑ Dünya SAKİT,
“Yeni Müsavat”




# Rus general qorxuya düşən Ermənistan üçün hərəkətə keçdi

## Azərbaycan müdafiə nazirinin Türkiyədə yüksək səviyyəli görüşlər keçirməsi, Qarabağ cəbhəsində artan hərarət düşmən ölkədə gərginlik yaradıb; **politoloq:** "Rusiya Ermənistanın Azərbaycan qarşısında məğlub olmasını istəmir"

**Ankarada səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. Martın 31-də Giresun şəhərində keçiriləcək Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşündə iştirak üçün qardaş ölkəyə səfər edən müdafiə nazirimizin bu səfəri işğalçı Ermənistanda da həssaslıqla izlənilir.**

Türkiyə prezidentinin rəsmi saytının yaydığı məlumatda deyilir ki, cənab Ərdoğanla görüşdə regional təhlükəsizlik, Azərbaycanla Türkiyə arasında hərbi əlaqələrin əsas istiqamətləri, hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, birgə təlimlərin keçirilməsi, ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub ("Report"). Görüşdə Türkiyənin milli müdafiə naziri Nurəddin Canikli də iştirak edib. Bundan bir neçə saat əvvəl isə Z.Həsənov elə türkiyəli həmkarı ilə bir araya gəlmişdi. Müdafiə Nazirliyindən "Yeni Müsavat"a verilən məlumatda deyilir ki, əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə keçirilən görüşdə vurğulanıb ki, Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq ikitərəfli əsasda və NATO tərəfindən həyata keçirilən proqramlar çərçivəsində aparılır. Qeyd olunub ki, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı daim inkişaf edir. Görüşdə regional təhlükəsizlik, Azərbaycan ilə Türkiyə arasında hərbi əlaqələrin əsas istiqamətləri, hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, birgə təlimlərin keçirilməsi, ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub.

Son zamanlar terrora qarşı zəfərləri ilə bütün dünyanın diqqətini özünə cəlb etmiş qardaş Türkiyədə Azərbaycan müdafiə nazirinin yüksək səviyyədə, hərarətlə qarşılanması, bu görüşlərdə heç şübhəsiz işğal altındakı ərazilərimizin də müzakirə mövzusu olması Ermənistanda və Qarabağdakı separatçı rejimdə narahatlıq doğurmaya bilməz.

Xüsusilə də dünyanın 20-dən artıq ölkəsinin Rusiya diplomatlarını "persona non-qrat" elan etməsi şəraitində Moskvanın daha öz problemlərinə diqqət etməsi Ermənistanda qəfildən Azərbaycanla üzbəüz qala biləcəyi qorxusunu yaradıb. Paralel olaraq Azərbaycan ordusunun qüdrəti haqqında yayılan məlumatların Rusiya dairələrində də özünə yer alması işğalçıları panikaya salıb.

****

Belə bir situasiyada Ermənistanda gah Rusiya, gah da Qərbə doğru vurnuxmalar müşahidə olunmaqdadır. Eyni zamanda işğalçı ölkə bölgənin təcrid olunmuş ölkəsi olaraq dalandan çıxmağı həsrətlə gözləyir. Məsələn, erməni mənbələri mayın 27-28-də Cenevrədə keçirilən Rusiya-Gürcüstan görüşündən də yaxşı xəbər ala bilmədiklərindən dolayı pərtliyi açıq nümayiş etdirirlər. Düzdür, tərəflər güc tətbiq etməməklə bağlı razılığa gəliblər. Lakin yeni anlaşmanın imzalanacağı barədə vədlər Ermənistan üçün hələ heç nə demək deyil. Elə Gürcüstan XİN-in Cenevrə görüşündən sonra yaydığı bəyanat da Ermənistanın üzərinə soyuq duş ələnməsi kimi bir hadisədir. "Yeni Müsavat" xatırladır ki, rəsmi Tiflis 2008-ci il razılaşmasına uyğun olaraq Rusiyanın Cənubi Osetiya və Abxaziyadakı qoşunlarını çıxartması zərurətini xatırladıb. Medvedyev və Sarkozi arasında əldə olunan həmin razılığa bu günə qədər əməl olunmayıb və nəticədə Ermənistana alternativ yolun açılması də həllini tapmır. Üstəlik, Ermənistan narahatdır ki, Gürcüstanın NATO-ya üzvlüyü Rusiya üçün gözlənilməz zərbə ola bilər. Ancaq bu, həm də işğalçı Ermənistanı sarsıdan addım olardı.

Hər yerdən ümidi kəsilmiş İrəvan indi də İran prezidenti Həsən Ruhaninin Bakıda səsləndirdiyi Qarabağ bəyanatına istinad etməyə başlayıb. İran prezidentinin Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll olunması zərurətindən bəhs etməsi işğalçı ölkədə az qala xilas yolu kimi qəbul olunur. Elə erməni mediasının bu xəbəri geniş tirajlaması da bundan xəbər verir. Ancaq dəfələrlə qeyd olunduğu kimi, Azərbaycanı öz suveren hüquqlarından istifadə etməkdən heç bir qüvvə dayandıra bilməz, o cümlədən ərazilərini hərbi yolla azad etməkdən.

****

**Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimovun son bəyanatı isə ziddiyyətli olmaqla yanaşı, çox güman ki, erməniləri sakitləşdirmək məqsədi daşıyır. O, Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahının Hərbi Akademiyasında keçirilən konfransda deyib ki, müxtəlif teatrlarda zərbələr formal olaraq bir-biri ilə bağlı olmaya, hansısa ölkə və ya koalisiya ilə əlaqəli görünməyə bilər.** "Tutaq ki, Suriyada münaqişənin növbəti kəskinləşməsi Donbasda irimiqyaslı hərbi əməliyyatların bərpa olunması ilə eyni vaxta təsadüf edə bilər. Üstəlik, Orta Asiyada və ya Qafqazda, tutaq ki, Azərbaycanla Ermənistan arasında da müharibə başlayar və bütün bunlar hamısı eyni zamanda baş verər. Tamamilə real ssenaridir. Və bütün bunlara hazır olmaq lazımdır", - o bildirib.

**Politoloq Qabil Hüseynli axar.az-a deyib ki, Gerasimovun son çıxışı müharibəyə çağırış notları ilə doludur:** "O qeyd edib ki, Baş Qərargah bütün döyüş əməliyyatlarını eyni mərkəzdən idarə edəcək və əlaqələndirəcək. Zənnimcə, bunlar çox təhlükəli çağırışlardır. Üstəlik, müharibə hədəflərinin birbaşa göstərilməsi və bunların içərisində Ermənistan-Azərbaycan müharibəsinin də yer alması çox ciddi məsələlərdən xəbər verir. Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi uğrunda apardığı mübarizəyə əngəllər yaradılır. Gerasimovun nəzərdə tutduğu Ermənistan-Azərbaycan müharibəsi Qarabağ müharibəsinə aid deyil. İrəvan "müharibə" dedikdə, guya bunun Ermənistana aid olmadığını, bütün proseslərin Dağlıq Qarabağ özünümüdafiə qüvvələri tərəfindən həyata keçirildiyini iddia edir. Azərbaycan birmənalı şəkildə Dağlıq Qarabağa tərkib hissəsi kimi baxır və müharibəni öz ərazisində antiterror əməliyyatları şəklində həyata keçirəcək. Belə şəraitdə Gerasimovun Ermənistan-Azərbaycan müharibəsi barədə fikirləri həqiqəti əks etdirmir. Bakı Ermənistan ərazisinin də qədim Azərbaycan torpaqları olduğu haqqında fikirlər səsləndirib. Bu, ermənilərin bölgəyə gəlmə olduqlarını və ərazi iddialarının əsassızlığını sübut etmək üçündür. Bütövlükdə Azərbaycanın mövcud və BMT tərəfindən tanınan sərhədlərə toxunmaq fikri yoxdur. Müharibə ancaq Azərbaycanın öz daxili ərazisində gedəcək, ona görə də Gerasimovun dedikləri qətiyyən Azərbaycanın apardığı antiterror əməliyyatlarına aid edilə bilməz".

**Q.Hüseynlinin sözlərinə görə, bu prosesə müdaxilə Rusiyanın ziyanına işləyə bilər:** "Bu, Azərbaycana beynəlxalq təşkilatlara şikayət imkanı verəcək. İnanmıram ki, Dağlıq Qarabağ ərazisində, məsələn, Sərsəng su anbarı üzərində Azərbaycanın öz nəzarətini təmin etmək uğrunda keçirəcəyi lokal əməliyyata Rusiya qarışsın. Çünki bu, indiki şəraitdə heç də təklənmiş Rusiyanın xeyrinə olmaz. Əks təqdirdə, Moskva çox şey itirə bilər".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a açıqlamasında ermənilərin Kremldən uzaqlaşmaq istiqamətində cəhdlərinin məqsədli olduğunu konkret dəlillərlə izah etdi:** "Rusiya Qərbin sərt təzyiqi ilə üz-üzədir. Kreml ordunun gücünə və nüvə silahına güvənir. Bəli, Vladimir Putinin prezident və baş nazir olduğu 18 ildə Rusiya ordusu xeyli uğur əldə edib. Bu uğurlar böyük dağıntılar və böyük itkilər hesabına başa gəlib. Putinin əmri ilə ordu 1990-cı illərin sonunda Çeçenistanı ram etdi, daha sonra Gürcüstan torpaqları işğal edildi, bu azmış kimi, Krım ilhaq olundu və Suriyada terrorçuların mövqeləri bombalandı. Putin prezident olduğu illərdə orduya böyük pullar ayrıldı, hərbi-sənaye kompleksinə yatırımlar qoyuldu. Ancaq indi elə bir vəziyyət yaranıb ki, Rusiya bu böyüklükdə yükü daşımaq iqtidarında deyil. Çünki Qərb-Rusiya qarşıdurması və sanksiyalar Rusiyanı taqətdən salır. Bir müddət sonra Rusiyanın maliyyəsi tükənmək üzrə olacaq. Bunu artıq Ermənistanda anlamağa başlayıblar. Ancaq İrəvanın çıxış yolu da yoxdur. Çünki Ermənistanın pulu yoxdur ki, başqa ölkələrdən silah və sursat alsınlar. Ermənistan yalnız Rusiyadan silah dilənə bilər və hansısa kredit ala bilər". **Ancaq E.Şahinoğlu bir məsələni xüsusi qeyd etdi ki, hətta Ermənistan bir başqa ölkədən silah almaq istəsə belə, Moskva onun qarşısını alacaq:** "Bu məsələdə İrəvan müstəqil qərar verə bilməz. Ermənistandan fərqli olaraq Azərbaycan istənilən ölkədən silah almaq gücündədir və maliyyə potensialı da buna imkan verir. Son aylarda belə xəbərlər dolaşır ki, Rusiya aprel savaşından çıxış edərək artıq Azərbaycana modern silah satmayacaq. Əlbəttə, bu məlumat dəqiqləşdirilməlidir. Ancaq Moskva bizə silah və hərbi texnika satmasa, özü itirəcək. Azərbaycan Rusiyadan ala bilməyəcəyi silahı başqa ölkədən alacaq. Ermənistanın isə belə seçimi yoxdur".

**Ancaq politoloq Rusiya və Ermənistan arasında ən ziddiyyətli münasibətlərin yaranması halında belə, ehtiyatı əldən verməməyi zəruri sayır:** "Bütün bunlara baxmayaraq, bilməliyik ki, yenidən Ermənistanla müharibəyə başlasaq, qarşımızda Ermənistan-Rusiya ittifaqı olacaq. Rusiya Ermənistanın Azərbaycan qarşısında məğlub olmasını istəmir. Elə 2016-cı ilin aprel ayında da Moskva Bakıya təzyiq etdi ki, ordumuz işğalçını daha böyük məğlubiyyətlərə uğratmasın. Ancaq bu o demək deyil ki, sakitləşməliyik. Düşmənə daima hərbi təzyiqi və onun itkilərini artırmalı, məhrumiyyətlərini və təcridini gücləndirməliyik. Bunu isə bizə heç kim qadağan etmir və qadağan edə də bilməz". **Ekspert Moskva-İrəvan əlaqələrinin, hərbi müttəfiqliyinin qarşısında yeganə yol görür:** "Türkiyə ilə hərbi ittifaqı mütləq gücləndirmək lazımdır. Başqa alternativimiz yoxdur".

Hər halda, böyük ehtimalla Gerasimov "Qarabağda müharibə başlasa, KTMT qoşulmayacaq" bəyanatından sonra, həmçinin müdafiə nazirimizin Türkiyədə yüksək səviyyədə görüşləri şəraitində Ermənistanda yaşanan ajiotajı səngitmək istəyir. Əks təqdirdə, belə açıq təhdidlə çıxış etməzdi. Amma istənilən halda Kremlin mövqeyi bizə təəccüblü görünməməlidir. Çünki Qarabağın işğalının uzanmasında Rusiyanın oynadığı rol danılmazdır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 67 (6956) 30 mart 2018

# Bayram qurtardı, qiymətlər isə enmədi

## Ekspertə görə, yeni mövsüm başlayana qədər qiymət artımı davam edəcək

**Bayram qurtarsa da, ərzaq və kənd təsərrüfatı məhsullarında ucuzlaşma müşahidə edilmir. Mağaza və bazarlara üz tutanlar yenə bahalıqdan gileylidirlər. Artıq mağazalarda və bazarlarda çiyələk, alça, qarpız kimi mövsümə uyğun olmayan meyvələrə də rast gəlinir. Ancaq qiymətinə baxdıqda heç də hər kəsin cibinə uyğun olmadığını müşahidə etdik.**

Məsələn, çiyələyin 250 qramlıq bağlaması 6 manata satılır. Alçanın qiyməti isə müxtəlifdir. Elə alça var ki, dənə ilə 50 qəpiyə, elə alça da var ki, qablaşdırılmada satılır. Gavalının kiçik qablaşdırmada olan qiyməti isə 10-15 manat arasında dəyişirdi. Bir sıra mağazalarda isə bu cür meyvələr göz önünə qoyulmayıb. Sadəcə olaraq elanı yazılıb ki, satışda bu meyvə var. Satıcılar bu cür mövsümə uyğun olmayan meyvə-tərəvəzi daha çox xəstə və hamilə qadınların aldığını dedilər.







Satıcılar israrla bu cür meyvələrin xaricdən gətirilmədiyini və Bakıda istixanalarda yetişdirildiyini, tam təhlükəsiz olduğunu deyirlər. Digər ərzaq məhsullarına nəzər saldıqda da qiymətlərdə heç bir endirim müşahidə edilmir. Hətta elə məhsullar var ki, onların qiyməti bahalaşıb. Məsələn, ən ucuz məhsul hesab edilən göyərtinin 1 dəstəsi 20 qəpik, cəfəri 30 qəpik, Türkiyə limonu 40 qəpik, yerli limonun bir ədədi 80 qəpik, alma 1-3 manat arası, portağal 1 manat 50 qəpik, mandarin 3-4 manat arası, pomidor 5-7 manat, xiyar 4-5 manat, kartof 90 qəpik, 1 manat 50 qəpik arası, soğan 70-90 qəpik arasında dəyişir. Yağların, çayların qiymətində də heç bir dəyişiklik yoxdur. Maraqlısı isə odur ki, bazarlarda alıcılarla yanaşı, satıcılar da narazıdır.

**"Yaşıl bazar"da çiyələk satan Emin Məmmədov alıcılıq qabiliyyətinin çox aşağı olduğunu dedi:** "Çiyələk və digər meyvələr çürüyüb gedir. Alıcı yoxdur. Almalar da artıq büzüşür. Alıcı görəndə sevinirik. Nəsə almaq istəyənə məcbur olub öz qiymətinə, bəzən ondan da ucuz verirəm ki, malım əlimdə qalmasın. Çox güman ki, bu cür qiymətlər yaya qədər davam edəcək. Qarpız da satırıq, ancaq almağa qorxurlar. Amma bunlar tam təhlükəsizdir və istixanalarda yetişdirilib. Mən özüm də evdə uşaqlarımla birgə yemişəm".

**Alıcı Zülfiyyə Quliyeva isə deyir ki, yayda bütün ərzaqlar sudan ucuz olacaq:** "Qiymətlər çox bahadır. Bayramda başa düşdük ki, baha olsa da, hər kəs nələrsə alıb bayramı yola verəcək. Bundan istifadə edən satıcılar da qiyməti artırdılar. Bəs niyə indi düşmür? Biz demirik ki, qəpik-quruşa sat. Ən azından bayramdan öncəki qiymət nə idisə, onu qoysunlar. Yayda hər şey bol və ucuz olacaq. Bir az da gözləyək. Boşuna deməyiblər kasıbınkı yaydır".

Maraqlıdır, ərzaq və kənd təsərrüfatı məhsullarında hər kəsin cibinə uyğun olan qiymətləri nə vaxt müşahidə edə biləcəyik?

**İqtisadçı ekspert Natiq Cəfərli ərzaq və kənd təsərrüfatı məhsullarının qiymətində iyunun əvvəllərində endirim müşahidə ediləcəyini bildirdi:** "Azərbaycanda ərzaq məhsullarının bahalaşması yalnız Novruz bayramı ilə əlaqədar olmadı. İstənilən bayram öncəsi qiymətlərdə kəskin artım olur. Bu artım da uzun zaman, yəni bayramdan sonra da, yeni mövsüm başlayana qədər davam edir. Çox güman ki, bu dəfə də belə olacaq. Yeni mövsüm başlayana qədər, yeni kənd təsərrüfatı məhsulları çıxana qədər qiymət artımı davam edəcək. Bu da may ayının sonu, iyunun əvvəllərinə təsadüf edir. Yəni bolluq o dövrlərə təsadüf edir. Çox güman ki, aprelin əvvəllərində ilk nübarlar çıxacaq və bunların da qiyməti fantastik dərəcədə baha olacaq. Hər il belə olub. İlk nübar meyvələrin qiyməti iki rəqəmli olacaq. Biz bunu hər il olduğu kimi bu il də bazarlarda görəcəyik. Amma bu, yayın əvvəlinə qədər davam edəcək. Mayın sonundan, iyunun əvvəlindən başlayaraq kənd təsərrüfatı məhsullarının qiymətində aşağı düşmələri görəcəyik. Bu, sentyabr, oktyabr aylarına qədər davam edəcək. Oktyabrdan sonra yenidən qiymət artımının növbəti fazasına daxil olacağıq".

**N. Cəfərli bunun hər il təkrarlanan və həllini tapmayan problem olduğunu dedi:** "Bu problemin həllini tapması üçün bölgələrdə soyuducuların olması lazımdır. Payızın sonuna yaxın çürüyən meyvə-tərəvəzlər olur. Bu dəfələrlə mediada da işıqlandırılıb. Bunların toplanıb soyuducularda qış mövsümünə saxanılması və qış mövsümündə də bazarlara çıxarılması problemi uzun illərdir ki, həllini tapmır. Bir neçə soyuducular tikilib. Amma bu problemi həll etmir. Onlarla, yüzlərlə belə soyuducuların olması lazımdır ki, payızın sonunda meyvə-tərəvəzlərin normal temperaturda, normal şərtlərdə saxlanılmasına imkan yaransın və təqribən qış aylarında yeni mövsüm məhsulları çıxana qədər bazara çıxıb həm bolluq yaransın, həm də qiymət tənzimlənsin. Bu illərdir baş vermir. Bu il də bunun baş verəcəyini düşünmürük. İyun ayından qiymətlərdə mövsümi xarakterli endirimlər olsa da, noyabrdan başlayaraq növbəti mövsümə qədər qiymətlərdə yenidən bahalaşmanı müşahidə edəcəyik".

**❑ Günel MANAFLI,**
**"Yeni Müsavat"**
**fotolar müəllifindir**

# "Sevil Massivi işi" yenə məhkəmədə

## 300-ə yaxın zərərçəkən pulların tam şəkildə ödənilməsini, təqsirləndirilənlər isə azadlığa buraxılmalarını istəyir

**Sumqayıt Apelyasiya Məhkəməsində hakim Elman Məmmədovun sədrliyi ilə "Sevil Massivi" MTK-nın vəzifəli şəxsləri barələrdə olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə iclası keçirilir. Hakim qarşısına MTK təsisçisi Aynur Zeynalov, kooperativin direktoru Elçin İsmayılov, Zabit Çələbiyev, Hökməli bələdiyyəsinin sədri Mirnamat Miradiyev və Səbinə Əliyeva çıxarılıblar.**




Bələdiyyə sədri ilə xanım təqsirləndirilən şəxs istisna olmaqla, digərləri həbsdədir. İş üzrə ümumilikdə 300-ə yaxın zərərçəkən var. İttiham aktına əsasən, "Sevil Massivi" MTK-da külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırılması faktına əsasən Vergilər Nazirliyində başlanmış cinayət işi üzrə istintaq aidiyyəti üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılıb. Kooperativin təsisçisi A.Zeynalovun kooperativin direktoru Elçin İsmayılov və digərləri ilə qabaqcadan əlbir olub, 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınmaqda, xüsusi razılıq alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etmələri sübuta yetirilib.

Təqsirləndirilən şəxslər ibtidai istintaq və birinci məhkəmə instansiyasında 19 milyon manatdan 10 milyon 500 min manatı ödəyiblər. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə A.Zeynalov 9 il, Z.Çələbiyev və E.İsmayılovun hər biri 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Məhkəmə digər təqsirləndirilənlər - M.Miradıyevin və S.Əliyevanın barəsində 3 il sınaq müddəti olmaqla şərti cəza təyin edib. Onlar məhkəmə zalından azadlığa buraxılıblar. Hökmdən narazı qalan təqsirləndirilən şəxslər apelyasiya şikayəti veriblər. Onlar barələrində bəraət hökmünün çıxarılmasını istəyir, ittihamı qəbul etmirlər. Zərərçəkmiş şəxslər də apelyasiya şikayəti verərək dəymiş ziyanın ödənilməsini istəyir.

Martın 29-da keçirilən məhkəmə iclasında zərərçəkənlər onlara dəyən ziyanın tam həcmdə ödənilməsini istəyiblər.

Onlardan biri Namiq Tanrıverdiyev bildirib ki, "Sevil Massivi" MTK-ya ümumilikdə 25 min manat pul ödəyib. Həmin məbləğin 9 min manatı torpaq sahəsinin alınmasına, yerdə qalan hissəsi isə ərazidə tikinti aparılmasına xərclənib. MTK rəsmilərinin həbsindən sonra onu da digər zərərçəkənlər kimi massivin ərazisinə buraxmayıblar. Zərərçəkənin sözlərinə görə, 4 ildir ki, massiv ərazisindəki mənzilinə gedə bilmir. Çünki ərazidəki mühafizəçilər buna imkan vermirlər. İşə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılarkən zərərçəkən bu məqamları məhkəmənin diqqətinə çatdırıb. Onun sözlərinə görə, məhkəmə yalnız torpağın alınmasına xərclənən vəsaitlərin zərərçəkənlərə qaytarılmasını hökm edib. Zərərçəkənlərin həmin torpaq üzərində aparılan tikinti işlərinə xərclədikləri pulları isə qaytarmaqla bağlı məsələni açıq qoyub. Bu gün Sumqayıt Apelyasiya Məhkəməsində zərərçəkənlər həmin torpaq üzərində tikintilərə xərclənən vəsaitlərin onlara geri qaytarılmasını tələb edirlər. Əvəzində isə rəsmilər onlara "gedib həmin torpağın üzərindəki evlərinizi sökün aparın" şəklində cavab verirlər. Həbsdə olan təqsirləndirilən şəxslər isə ittihamı qəbul etmir, bildirirlər ki, hər hansı bir dələduzluq etmək fikirləri olmayıb, müqavilələrə üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmək üçün çalışdıqları bir vaxtda həbs olunublar. Bu da son nəticədə müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsini mümkünsüz edib və hazırda zərərçəkənlərlə üz-üzə qalıblar.

İstintaqın qənaətinə görə, "Sevil Massivi" MTK-nın məsul şəxsləri Abşeron rayon Hökməli bələdiyyəsinin sədri Mirnamat Miradiyevlə əldə etdikləri şifahi razılaşmaya əsasən, bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, ayrı-ayrı şəxslərin mülkiyyətində olan "At yalı" və "Sonalı sahəsi" adlandırılan 110 hektar örüş torpaqlarının vətəndaşlara faizsiz kreditlə satışını həyata keçiriblər. Vətəndaşlar tərəfindən isə həmin torpaq sahələrində layihə-smeta sənədləri olmadan, dövlət qeydiyyatına alınmadan 200 fərdi yaşayış evinin tikintisini həyata keçiriblər. Kredit ödənişləri başa çatdıqdan sonra bələdiyyəyə məxsus olmayan sahələr bələdiyyə tərəfindən hərraca çıxarılmaqla satılaraq vətəndaşların adlarına rəsmiləşdirilib. "Sevil Massivi" MTK tərəfindən qeyd olunan ərazinin təyinatına uyğun olmadan orada 100-dən artıq çoxmənzilli yaşayış binalarının tikintisi nəzərdə tutulmuşdu.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

bakcell

# «Bakcell» və "Xalq Bank"dan minlərlə hədiyyə

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» özünün "Ulduzum" loyallıq proqramının iştirakçılarını sərfəli təkliflər və inanılmaz kampaniyalarla sevindirməyə davam edir. ""Xalq Bank"la "Ulduzum" hədiyyələr qazandırır!" kampaniyasında iştirak etməklə "Ulduzum" abunəçiləri gözəl hədiyyələr qazanmaq şansı əldə edirlər.**

**15 mart 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixinədək keçirilən ani lotereyanın şərtlərinə əsasən, "Xalq Bank"ın filiallarında müvafiq bank əməliyyatlarından (təcili pul köçürmələri, kommunal, rabitə, internet, TV xidmətlərinin, yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələrin ödənilməsi, bank hesabları üzrə bəzi əməliyyatlar, depozit seyflərinin icarəsi, ödəniş kartının əldə edilməsi və s.) istifadə edən hər bir şəxs 8000-dən artıq hədiyyədən birini qazanacaq.**

**Ani lotereyada iştirak edib hədiyyələri qazanmaq üçün "Xalq Bank"ın istənilən filialında yuxarıda göstərilən bank əməliyyatlarından istifadə zamanı, XALQBANK sözünü 5555 nömrəsinə pulsuz SMS vasitəsilə göndərməklə alınan "Ulduzum" kodunu Bankın əməkdaşına təqdim etmək lazımdır. Həmin kod bank əməkdaşı tərəfindən elektron lotereya proqramına daxil edilir. Proqram təsadüfi seçim yolu ilə müştərinin hədiyyəsini müəyyən edir və hədiyyə yerində təqdim olunur.**

**Qeyd edək ki, kampaniyada iştirak edən müştərilər 20-yə qədər pulsuz «Bakcell» dəqiqəsi, 10 litrə qədər yanacaq təmin edən "Azpetrol" kuponları, "Autolux"dan endirim kuponları və digər gözəl hədiyyələr əldə edəcəklər.**

**Lotereya haqqında daha ətraflı məlumatı telefonla bankın "138" Məlumat Mərkəzindən, www.xalqbank.az və www.ulduzum.az saytlarından əldə etmək mümkündür.**

**2.7 milyon nəfərdən çox abunəçisi və 230-dək tərəfdaşı olan "Ulduzum" bu gün abunəçilərə müxtəlif çeşidli güzəşt və xidmətlər təklif edən, həmçinin öz abunəçilərinin və proqramının tərəfdaşları olan şirkət müştərilərinin sadiqliyini təşviq etməklə təkcə Azərbaycanda deyil, Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika regionunda belə ən yaxşı müştəri xidməti göstərən proqramlardan biridir.**

**"«Bakcell»"in təqdim etdiyi "Ulduzum" loyallıq proqramında bütün «Bakcell» abunəçiləri iştirak edə bilər. Bunun üçün heç bir xüsusi ödəniş və yaxud abunə haqqı tələb olunmur. Ulduzum proqramına qoşulmaq üçün "1" yazıb 5555 qısa nömrəsinə pulsuz SMS göndərmək kifayətdir. Həmçinin, "Ulduzum" proqramından daha rahat şəkildə istifadə etmək üçün «Bakcell» Ulduzum mobil tətbiqetməsini (həm iOS, həm də Android platforması üçün) www.ulduzum.az saytından yükləmək olar.**

YENİ MÜSAVAT
N 67 (6956) 30 mart 2018




**Cümə söhbətləri**

**Bismillәhir-Rahmәnir-Rahim!**
**Mövzumuz insan həyatında müvəffəqiyyətin açarları ilə bağlıdır. Müasir dövrdə çox danışılan, müzakirə olunan mövzulardan biri budur. Təəssüflər olsun ki, İslamın - mübarək inancımızın bu mövzuda yanaşmasının təqdimatında böyük çatışmazlıqlar olur, dünya insanına dinimizin bu mövzuda nəzərləri yetərincə çatdırılmır.**

# Uğurun açarları: fürsətləri tanımaq



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Eyni zamanda insan özü də fərqinə varmadan, çox vaxt ibadi əməllərindən kənarda, Allahdan kənarda uğur və nailiyyətlərin mövcudluğunu təsəvvür edir. Sözsüz ki, burada insanın ibtidaidən təlim-tərbiyəsinin rolu fövqəl dərəcədədir. Çünki təlim-tərbiyənin əsas qayələrindən biri - insanda Allaha bəndəlik ruhiyyəsini artırmaq olmalıdır. Amma bəşəriyyət artıq neçə əsrlərdir ki, bu məsələdə müəyyən mənada durğunluq yaşayır. Hətta İslam və dindarlıq iddiasında olan insanlar da bəzən bu mövzuda qəflət edirlər.

## Zahiri uğurun müddətliliyi

Ötən bəhsimizdə vurğuladıq ki, həqiqi uğura çatmağın mühüm açarlarından biri - İlahi tofiqatdır. Əgər çatdığımız uğur İlahi tofiqatın bərəkətinədirsə, deməli, bu, həqiqi uğurdur. Haradan biləki, çatdığımız uğurda İlahi tofiqat var, yoxsa yox? Bunu anlamaq üçün gərək əməllərimizə diqqət edək. Bizim namazımızda, orucumuzda, ibadətlərimizdə, Allah bəyənən işlərdə ruhiyyəmiz necədir? Əgər bütün bu məsələlərdə ruhiyyəmiz yerindədirsə, deməli, çatdığımız uğur gerçək uğurdur.

İslamın nəzərində müvəffəqiyyətin ciddi açarlarından biri - təvqa və mütədəyyinlikdir. Toplumda dilə gətirilməsə də, hətta bəzən dini camiənin özündə də belə yalnış təəssürat mövcud olur ki, dindarlıq uğura çatmaq üçün haradasa bir mane ola bilir. Amma dinimizin bir başqa yanaşması var. Dinimizin nəzərində uğurun ciddi açarlarından biri - təqvadır. Əgər təqva ilə yoğrulmayan, dindarlıqla yoğrulmayan bir uğur olsa, bu, gerçək uğur deyil. Bu, zahiri bir uğurdur və müəyyən məhdud bir müddətli ömrü var. Bəzən bir gün, bəzən bir ay, bəzən 1 il və daha artıq çəkə bilir. Amma müddətlidir. Və hər bir halda, bu dünyada da qurtarıb gedəcək.

## Ən böyük fürsət - insan ömrüdür

Gerçək uğura çatdıran amillərdən biri də fürsətləri dəyərləndirməkdir. İslamın nəzərində uğura, müvəffəqiyyətə çatmağın mühüm açarlarından biri - fürsətləri tanıma və dəyərləndirmədir. Hər bir insanın həyatında müxtəlif fürsətlər əmələ gəlir. İnsanın malik olduğu ömrün özü, yaşamanın özü - bir fürsətdir. Hər malik olduğumuz günün özü böyük bir fürsətdir ki, təkamül yolunda bir məsafə keçək. Hər yaşadığımız günü bir fürsət kimi tanımalıyıq ki, gerçək uğura çata bilək. Hər namaza gərək fürsət kimi baxaq, çünki bəlkə bu, həmin namazdır ki, bizləri qaranlıqdan işığa tərəf apara bilər.

Bizlər fürsətləri dəyərləndirə bilmək üçün gərək öncə fürsətləri tanıya bilək. Fürsətləri tanımaq - önəmli və ciddi bir məsələdir. Tanımaqdan sonra fürsətlərə təvəccö, diqqət etməliyik. Adətən insanlar xəstələndikdən sonra sağlamlıq fürsətini başa düşür, hansısa bir problemlər, müşküllər, çətinliklər həyatımızda meydana çıxdıqdan sonra aramlıq və asayiş dövrünün fürsət olduğunu anlayırıq. O şərait ki, insan yaşayır, o, sağlamdır və heç bir xüsusi problemi yoxdur - bu, əslində böyük bir fürsətdir. Təəssüflər olsun ki, biz fürsətləri ya tanımırıq, ya da tanımaqla yanaşı, onlara ki, diqqət etmək lazımdır - lazımi diqqət ayırmırıq. Deməli, fürsətlərlə bağlı mühüm mövzulardan biri budur ki, gərək biz fürsətləri tanıyaq.

## Hər fürsəti qənimət bilməli

**İnancımızda fürsətlərlə bağlı xüsusi bir konseptual, çox dərin, tam fundamental baxış var. Bir tərəfdən fürsətlər qənimətə bənzədilir. Necə ki, bir insan qənimətin nə olduğunu bilir və qənimətdən istifadəni başa düşür - o cür də fürsətlərə qənimət kimi baxmaq lazımdır. Həzrət Peyğəmbər (s) buyurur:** “Kimin üzünə xeyirin bir qapısı açılsa, onu qənimət bilməlidir. Çünki qapının nə vaxt üzünə qapanacağını bilmir”.

Biz üzümüzə açılan xeyir qapılarını qənimət bilməliyik. Misal üçün, birinin ziyarətə getmək fürsəti yaranıb. Bu, onun üçün açılmış bir xeyir qapısıdır, gərək bunu dəyərləndirsin və getsin. Çünki bu xeyir qapısının nə zaman bağlanacağını bilmir. Təəssüflər olsun ki, insanlar çox zaman xeyir deyəndə, ancaq bunu maddi anlamda başa düşürlər. Bəzən bir insanın bizə olan ehtiyacı - üzümüzə açılan xeyir qapısıdır.

Xeyir qapısı - özlüyündə geniş bir anlamdır. Xeyir fürsətinə böyük bir nemət kimi baxmalıyıq. Nemət kimi baxsaq, şükrünü etmiş olarıq, Allahı xatırlayarıq, yanaşmamız dəyişər.

## Fürsətlər bir bulud kimi ötüb keçər

Biz deyə bilərik ki, dünya insanının, materialist təfəkkürü ilə yaşayan insanın, bütün proqnozları, hesablamaları maddi çərçivədən o yana çıxmayan insanların da anlayışında uğura çatmağın buna oxşar açarları var. Onlar buna İlahi tofiqat deməyəcəklər, bunu bir şans kimi dəyərləndirəcəklər. Yəni tofiqatın adını şans qoyacaqlar. Amma mahiyyət bundan dəyişmir ki.

Təqva ilə bağlı deyəcəklər ki, insan gərək dürüst, ləyaqətli çalışsın ki, uğur qazansın. Yəni, təqvalılığın adını dürüstlük qoyacaqlar.

## Fürsət gec tapılandır

**Həzrət Əli (ə) buyurur:** “Fürsət tez keçən və gec tapılandır”. Fürsət tez keçir, amma gec tapılır. Elə fürsətlər var ki, insan onun yaranmasını aylarla, illərlə gözləyər, amma o fürsət yaranmaz. Amma insan da var ki, həmin fürsətə malikdir, amma onu doğru dəyərləndirə bilmir. Məsələn, astronomiya ilə məşğul olan insanlar xüsusi bir astronomik hadisəni izləyirlər ki, yüz ildən, beş yüz ildən bir baş verən həmin bu hadisəni diqqətdən qaçırmasınlar və onun üzərində müşahidələr aparsınlar.

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** “Fürsət düşməmiş bir işdə tələsmək, fürsət düşdükdə isə lənglik və ahəstəlik - nadanlığın nişanəsidir”. Fürsəti tanımaq lazımdır. Əgər tanımasaq, fürsətlə bağlı bilgimiz, təvəccömüz olmasa - ya tələsərik, ya da əldən verərik. Sanki adam olar ki, sübh namazını vaxtından bir saat əvvəl qılar ki, daha da yaxşı edib - vaxtından əvvəl qılıb. Halbuki namazın vaxtı hələ daxil olmayıb. Bir də insan olar ki, sübh namazını yubadar, günəş çıxandan sonra qılar. Yəni namaz artıq qəzaya gedib. Bunların hər ikisi - nadanlığın nişanələridir. Fürsəti dəyərləndirən insan odur ki, namazları vaxtında, özü də əvvəl vaxtında qılır.

## Tam fürsət yaranmasını gözləmək - şeytanın (lən) vəsvəsələrindəndir

**İmam Sadiq (ə) buyurur:** “Hər kimin əlinə fürsət düşsə və o, tam fürsəti gözləyərək onu təxirə salarsa, ruzigar həmin fürsəti də ondan alar. Çünki ruzigarın işi - aparmaq və zamanın üslubu isə əldən çıxarmaqdır”.

Fürsətlərə də dünya insanı çox önəm verir. Amma fürsət dedikdə, ancaq maddi, bu dünya ilə bağlı olan məsələləri nəzərdə tuturlar.

**Həzrət Peyğəmbər (s) buyurur:** “Fürsəti əldən vermək kədər gətirər”. Bir çox hallarda toplumda olan depressiyalar, qəm-kədər ab-havalarının bünövrəsində həm də bu məsələlər dayanır. İlahi tofiqatları, fürsətləri dəyərləndirməyi bacarmalı, proseslərə təqva üzərində yanaşmalıyıq. Əgər bunu əldən versək, nəticə etibarilə kədərlə qarşılaşmış olarıq.

**Həzrət Əli (ə) buyurur:** “Fürsət bir bulud kimi ötüb keçər. Belə isə yaxşı fürsətləri qənimət bil”. Fürsət bir bulud kimidir. Yəni insana verilən fürsət həm tez gedə bilər, həm də onun nə vaxt getdiyinin fərqinə vara bilməzsən. Necə ki, bir sıra binalarda cəmi bir neçə saat su verirlər, camaat bu bir neçə saatı fürsət bilir ki, müvafiq çənləri, qabları su ilə doldursun, su olmayacaq müddət üçün su tədarükü görsün - elə də əlimizdə olan hər fürsəti dəyərləndirməyi bacarmalıyıq.

## Hər bir işin öz zamanı var

**Biz bilməliyik ki, fürsətlər hər zaman bizi gözləmir. Hər bir fürsət bizim təqdiratımızda bəlli bir zamanda, bəlli bir çərçivədə müəyyənləşib. Həzrət Əli (ə) buyurur:** “İşlər - öz zamanlarının girovlarıdır”. Mümkündür ki, biz bəzi məsələlərimizi təxirə salaq, sonra o fürsətləri ki, vaxtında etməliydik - onları heç həyata keçirə bilməyək. Misal üçün, yaşlı qohumlar var ki, insan onlara baş çəkməlidir, sileyh-rəhm etməlidir. Amma onlara zamanında baş çəkmiriksə, - sonradan onlar dünyadan köçərlər və artıq heç onları görmək fürsətimiz olmaz.

Birinin oruc qəzalarını tutmaq fürsəti var, sonra ola bilər elə xəstələnsin ki, heç artıq onun bu fürsəti olmasın.

Hər bir fürsətin bəlli bir zaman imkanları var. Uşaq tərbiyəsinin öz zamanı var. Gərək uşaqla uşaq vaxtı ünsiyyət saxlayasan. Ünsiyyət saxlamırsansa, böyüyəndə ünsiyyət saxlayarkən, artıq onda uşaq hər şeyi bildiyini, lazım olarsa özü bu məsələdə daha dəqiq bilgilərə malik olduğunu söyləyə bilər. Çünki uşağın tərbiyəsi öz vaxtında və zamanında olmalıdır.

Bizim hər gün əlimizdə olan fürsətlər var. Elə ən böyük fürsət də - yaşamaq, nəfəs almaq, düşünmək fürsətidir. İnsanda fikirləşmək, düşünmək, təfəkkür etmək prosesi bir anda bitsə, bütün həyatımızın mənası itər, artıq mükəlləf də olmarıq. İxtiyarımızda olan bütün fiziki, mənəvi, maddi məsələlərin hamısı bizim üçün mənasızlaşar. Bu fürsətin qədrini bilməyə dəyməzmi?

Dünyanın xüsusiyyəti budur ki, insanı özünə cəzb edər. İnsan gerçək uğura çatmaq istəyirsə, bu cəzzabiyyətin əsarətindən qurtulmalı və fürsətlərə doğru hərəkətdə olmalıdır. İnsan anlamalıdır ki, hər gün iyirmi dörd saatlıq bir fürsət imkanı var. Düşünməlidir ki, əvəzində heç nəyi almadan Allah Təala onun ixtiyarında iyirmi dörd saatlıq bir imkan qoyub. Burada da müəyyən bir şeyləri həyata keçirməyi bizlərə əmr edibsə, bunu da bizim özümüz üçün edib. Rəbbimiz Özü ilə bağlı bir məsələ yoxdur. Biz həmin iyirmi dörd saatı hesab edək ki, iyirmi üç saatdır və bir saatı özümüzə, öz ruhumuza həsr edək. Bu bir saatda bəzi məsələlərimizə diqqət ayıraq, Rəbbimizlə rabitə, ünsiyyət qurmağa çalışaq. Bu bir saatı fürsət bilək.

## Həyatı fürsətə çevirək

Bizlər fürsətləri tanımalı, fürsətlərə agah olmalı və fürsətləri düzgün dəyərləndirməyi bacarmalıyıq. Əgər bunu bacarsaq, gerçək uğura doğru gedə biləcəyik. Günümüzün bütün əsas məsələləri bunlarda xülasələnib. Biz həyatımızın bütün sahələrini İlahi ölçülərlə yaşasaq, tofiqatla ölçsək, mütədəyyinliklə ölçsək, fürsətləri nemət bilməklə ölçsək - həyatımız bizim üçün böyük bir fürsətə çevrilər və onun hər anını, hər ləhzəsini düzgün yaşayarıq. Bunun üçün gərək həyatı nemət bilək. Biz bir şeyi nemət bilsək, onun şükrünü etməyə çalışacağıq. Gerçək şükür isə neməti düzgün istifadə etməkdir. Həyatımızı da nemət olaraq bilsək, onu düzgün yaşamağa çalışacağıq və bu da bizi gerçək uğurlu insan edəcək.

**Allahım, bizlərə həyat nemətini dərk edib, onu düzgün yaşamağı nəsib et!**

**Allahım, həyatımızdakı fürsətləri düzgün dəyərləndirib, gerçək uğura tərəf hərəkətdə olmağımızı nəsib et!**

**Allahım, bizlərə dünyanın cəzzabiyyətindən amanda qalmağa yardımçı ol! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 67 (6956) 30 mart 2018



## Bəslədiyi kərtənkələlər 42 yaşlı kişini yedi

Animal Planet (Heyvan Planeti) adlı kanalda yayımlanan veriliş 2002-ci ildə həyatını itirən amerikalı Ronald Huffun ölümünü bir daha gündəmə gətirdi. Keçmiş bir əsgər olan Ronald Huff təkbaşına yaşadığı evində iri kərtənkələ bəsləyirdi. 42 yaşındakı Huff iri sürünənləri üçün ən uyğun atmosferi yaratmışdı. Evdə rahatca gəzmələri üçün temperaturu 25 dərəcəyə sabitləmişdi. Ətyeyən kərtənkələlərini kiçik heyvanlarla bəsləyirdi. Amma bir gün Ronald Huff işə gəlməyib və dostları da onunla əlaqə saxlaya bilmədiyi üçün polisə xəbər veriblər. Evinə gedən polislər öncə qapını döyüb, ancaq açan olmayıb. Digər tərəfdən, evdən gələn tıqqıltı səslərini eşidə biliblər. Qapını qıraraq içəri girən heyət həyatının şokunu yaşayıb. Ronald Huff qanlar içində yerdə yatıb, üzləri qana bulanmış iri kərtənkələlər isə evdə dolaşırdı. Polislər kərtənkələləri çətinliklə də olsa tutmağa nail olub. Ronald Huffun meyiti üzərində aparılan ekspertiza nəticəsində onun kərtənkələlər tərəfindən yeyildiyi ortaya çıxıb. Ronald Huffun ekspertiza nəticələri isə heyvanların onu öldükdən sonra yediyini, yoxsa yeyərək öldürdüyünü üzə çıxara bilmədi. Huffun tükürpədici ölümü hələ də sirrini qoruyub saxlayır.

# Kitab oğrusu 35 il sonra səhvini düzəltdi

Amerikanın Montana ştatındakı Qreyt Follz şəhərindəki ictimai kitabxananın keçmiş abunəçisi 1982-ci ildə oradan götürdüyü kitabı geri verib. Bu barədə lenta.ru saytı “Great Falls Tribune”ya istinadən xəbər verib. Kitabxana Riçard Metison adlı müəllifin “Bid Time Return” adlı kitabını poçt vasitəsilə alıb. Göndərilən poçt məhsuluna izahat xarakterli məktub da əlavə olunub. Məktubun müəllifi boynuna alıb ki, kitabı 35 il boyunca özündə saxlayıb. Həmin müddət ərzində o, kitabı təkrar-təkrar 25 dəfə oxuyub və yazıçının avtoqrafını da alıb.



Kişini vicdan əzabı rahat buraxmadığı üçün o, kitabı kitabxanaya geri qaytarmağa qərar verib və onun içinə 200 dollar da qoyub: “Günahımın yuyulmasına ümid edirəm”. Kitabxananın müdiri Keti Mora isə deyib ki, kitabın qayğısına qalmaq üçün oxucunun sərf etdiyi məbləğ insanı şoka salır.

# Yarım milyon dollar borcu olan amerikalı üzməyə gedib və itib



Amerikanın Florida ştatındakı Fort-Loderdeyl şəhərində yaşayan 52 yaşlı Konstantin Teoxarisin yarım milyon dollar aliment borcu olub. 20 mart tarixində, səhər 7-nin yarısında evdən çıxan adam sapserf sürməyə getdiyini desə də, itkin düşüb. Onun xalası oğlu Kris Demianın dediyinə görə, kişi boşanma və aliment borclarına görə depressiyaya düşüb. Amma buna baxmayaraq, intihar haqda düşünməyib. O, hesab edir ki, borcları Konstantini ölkədən qaçmağa məcbur edib. Belə ki, tezliklə onu bu borcları ödəmədiyinə görə cəzalandıracaqdılar. Demian bildirib ki, qohumu 18 martdan etibarən ailə üzvləri ilə hər hansı əlaqəyə çıxmırdı. Bununla yanaşı, o, xalası oğlunun yaxşı üzgüçü və sapserfer olduğunu iddia edib. İtən kişinin qardaşı Rik isə deyib ki, Konstantin evdə pulqabısını, telefonunu, açar və sənədlərini qoyub: “Ümid edirəm ki, onda hər hansı ürək tutması olmayıb və o batmayıb. Çünki son zamanlar o, ciddi əsəb sarsıntısı keçirirdi”.

Konstantin eyni zamanda ağıl azlığından əziyyət çəkən yaşlı valideynlərinə də qulluq etmək zorunda idi. İtən şəxsin dayısı ehtimal edir ki, bacısı oğlu intihar edib. Çünki onu serf üçün evdən çıxdığı halda, özü ilə dayver maskasını və ağırlaşdırıcı kəməri də götürüb. Teoxaris 2008-ci ildən həyat yoldaşı ilə boşanıb. O vaxtdan bəri üst-üstə 549 min dollar aliment borcu yığılıb. Sonuncu dəfə o, keçmiş arvadına 2014-cü ilin avqustunda aliment ödəyib.




**QOÇ** - Qısqanclıq, dedi-qodu, iki münaqişəli adamı barışdırmaq cəhdi sizi gözdən sala bilər. Odur ki, istənilən prosesdə loyallığınızı qorumağı bacarmalısınız. Kreditlə bağlı bütün işləri təxirə salın.

**BUĞA** - Gərgin iş qrafikinə dözümsüzlüyünüz bir az problem yarada bilər. Yalnız böyük ideyalarınız barədə düşünün. Ətrafınızdakılar tərəfindən sevilməyə çalışın. Aldığınız təkliflərə isə razılıq verməyə tələsməyin.

**ƏKİZLƏR** - Ev-mənzil təmirinə başlamaq üçün yaxşı vaxtdır. Yalnız saat 11-13 arası xırda mübahisələriniz mümkündür ki, bunu da özünüz yaratmamalısınız. Astroloji göstəricilər səhhətinizə fikir verməyi məsləhət görür.

**XƏRÇƏNG** - Kollektiv müəssisədə fəaliyyət göstərdiyiniz təqdirdə müvəffəqiyyət qazanmağı bacaracaqsınız. Hətta namizədsinizsə, vəzifə irəliləyişləri də mümkündür. Axşama doğru çoxdan əlaqə saxlamadığınız doğmalarınızdan xəbər tutun.

**ŞİR** - Təcrübəli adamlarla məsləhətləşin, müqəddəs ziyarətgahlarımıza baş çəkin. Probleminizin həllini məmurlardan deyil, Tanrıdan istəyin. Axşam saatlarını daha çox evdə keçirməyə çalışın - oturaq işlər məsləhətdir.

**QIZ** - Qəlbinizin sevgi guşəsini boş saxlamayın. Çünki bu ərəfədə enerjinizi məhz məhəbbətdən almalısınız. Könül rahatlığınız təmin olunduğu halda, qalan məsələlərdə hər şey qaydasında olacaq. Səfərə çıxmayın.

**TƏRƏZİ** - İqlimin mülayimliyi ümumi ovqatınıza müsbət təsir edəcək ki, bu da əlinizdə olan işlərin daha sürətli həllinə xidmət edəcək. Bu gün kənar təsirlərə, dedi-qoduya əhəmiyyət verməməli, səfərə çıxmamalısınız.

**ƏQRƏB** - Göy qübbəsi düşünülməmiş addım atmağınızın əleyhinədir. Çətinliyiniz olduğu təqdirdə mütləq inandığınız adamlardan məsləhət alın. Bu gün saat 16-dan sonra çox əziyyətlərinizin bəhrəsini görəcəksiniz.

**OXATAN** - Günün ümumi mistik gərginliyinə baxmayaraq, nahardan etibarən uğurlar sizi qoynuna alacaq. Rastlaşdığınız hadisə və insanlar ümumi əhvalınıza yüksək təsir edəcək. Pulsuzluqdansa məyus olmayın.

**OĞLAQ** - Uzaq səfərləri və spirtli içki qəbul etməyi təxirə salsanız, gün ərzində hər hansı xoşagəlməzliyin şahidi olmayacaqsınız. Sənədlərlə bağlı bütün işlərinizi sürətləndirin. Astroloji göstəricilər gecəni evdə keçirməyi tövsiyə edir.

**SUTÖKƏN** - Daxili sabitliyinizi qorumaqla situasiyalarda fəallaşmağı bacaracaqsınız. Bu gün həm də bir neçə sınaqdan keçəcəyiniz gözlənilir. Günün ikinci yarısı büdcənizi artırmaq imkanınız olacaq.

**BALIQLAR** - Bütün gücünüzü fəaliyyət istiqamətinə yönəldin. Gün ərzində başladığınız heç bir işi yarımçıq buraxmayın. Pulla bağlı layihələrdə təkbaşına qərar verməyin, mütləq təcrübəli insanların köməyindən yararlanın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Naşükür fil balası onu xilas edənlərə hücuma keçdi



Hindistanda kiçik fil balası onu çuxurdan xilas edən xilasedicilərə hücum edib. Lenta.ru saytı bu hadisənin əks olunduğu videonu yayıb. Videorolik Hindistanın Xosur şəhərində, 26 martda çəkilib. Çuxura düşən 2 aylıq fil balasını öncə böyük fil xilas etmək istəsə də, buna nail olmayıb. Yerli sakinlər həyəcanlı qışqırıq səsini eşidiblər və yardım üçün meşə işçilərinə müraciət ediblər. Sonuncular isə xilasedicilər komandası çağırıblar. Hadisə yerinə gələn xilasedicilər kanatın köməyi ilə fil balasını düşdüyü çuxurdan çıxarıb. Heyvan müqavimət göstərməsin deyə, onun gözünə kiçik bir parça hissəsi də atıblar. Fil balası çuxurdan çıxan kimi gözündəki parçadan qurtulub və onu xilas edənlərə qarşı hücuma keçib. Daha sonra onu vəhşi heyvanlar üçün sığınacağa gətiriblər. Yaxın zamanda isə onu azadlığa, öz dəstəsinin içinə buraxmağı planlaşdırırlar.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.